07_27 IYUl-QARA.qxd 2/21/2025 12:08 AM Page 1


# UNİKAL

№07 (2237) 21 fevral 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# Oliqarxların ölkəyə gətirdiyi qida məhsulları ilə bağlı müəmma




Səh.8



## Prezidentdən Artur Rasi-zadə ilə bağlı sərəncam

*Artur Rasizadə "Heydər Əliyev" ordeni ilə təltif edilib. "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncama əsaəsn, ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə və dövlət qulluğunda müstəsna xidmətlərinə görə Artur Tahir oğlu Rasizadə "Heydər Əliyev" ordeni ilə təltif edilib. Qeyd edək ki, fevralın 26-da Artur Rasi-zadənin 90 yaşı tamam olacaq.*

Səh.2

## "Ukrayna-Rusiya müharibəsi sadəcə, dondurulacaq"



*Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, ABŞ-Rusiya görüşlərindən sonra hansısa nəticənin əldə oluna biləcəyindən, Ukrayna prezidenti Volodimir Zelenskinin Türkiyə səfərinin məqsədindən və Rusiya-Ukrayna müharibəsinin dayandırılmasından sonra Cənubi Qafqazda...*

Səh.4

## Ermənistanın referendum oyunu, yoxsa növbəti sülhdən yayınma fəndi...



*Xəbər verdiyimiz kimi, Ermənistan baş naziri Nikol Paşinyan fevralın 19-da xalqa müraciət edib. Baş nazir yeni konstitusiya ilə bağlı danışarkən yeni konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin zəruri olduğunu bəyan edib. Ancaq Baş nazir referendumun tarixini açıqlamayıb.*

Səh.9

## Vətənə sevgi ailədən başlayır



*Uşaq və gənclərin vətənpərvər ruhda, onların hələ uşaqlıqdan vətən sevgisi ilə böyüməsində ailələrin rolu böyükdür. Elə ailə kiçik dövlətdir sözü də boşuna deyilməyib. Dövlətin güclü, qüdrətli olması həm də onu sevən, göz bəbəyi kimi qoruyan gələcəyin yetişməsindən asılıdır.*

Səh.11

07_27 IYUI-QARA.qxd 2/21/2025 12:11 AM Page 2



# "İki gündür oxuyana da "sənətkar" deyirlər" - Mətanətdən aparıcılara irad



***”İnsan üçün ən dəyərli şey zamandır. O zamanı da bu gün efirlərdə dəyərsizləşdiriblər”.***

Bu sözləri müğənni Mətanət Əsədova ”Tarixin bir günü” verilişində deyib. O, illərdir səhnədə olan müğənnilərlə yeni sənətə gələnləri eyni tutan və onları da ”sənətkar” adlandıran aparıcıları tənqid edib: ”Bir dəfə demişəm ki, mən olmayan yerdə adımı çəkməyin. Heç nədən başı çıxmayana da Mətanət Əsədovadan sual verməyin. Heç olmasa, oxumaqdan bir az da olsa, alnayışı varsa, fikir bildirə bilər. Elə adamlara mənim haqqımda sual verirlər ki, istəyirəm ekrandan içəri girim ki, dayanın, siz nə edirsiniz? Ona da ”sənətkar” deyib əl çalırlar, buna da. Ona da deyirlər səndən yoxdur, buna da. Nə olub, nə xəbərdir? Hıçqıra-hıçqıra oxuyanlar var, elə bil tikə qalıb boğazında ona da deyir ”sənətkar”. Kənardan baxanda deyəcək ki, həmin şəxs aparıcıya nəsə edib, ya da verib. Sən aparıcısan, ondan niyə çəkinirsən? Niyə ona yaltaqlanırsan? O boyda universiteti bitir, kanal rəhbəri efirdə bu böyüklükdə yer versin ki, gəlib yaltaqlıq edəsən, özünü kiminsə qarşısında aşağılayasan? Bu, nə deməkdir? Efir bitəndən sonra saatlarla həmin adamı telefonda qınayıram ki, bəsdirin, yığışdırın özünüzü. Ona görə də sənətçilər küsüb oturub evdə. Brilliant Dadaşova (Xalq artisti - red.) sənətkardır. Yeganə sənətçidir ki, konsertinə bilet alıb getmişəm. Ona da deyək sənətkar, iki gündür oxuyana da? Mən elə aparıcılardan şübhələnirəm. Ya qorxur, ya umduğu nəsə var. Ona görə də efirdə yoxam. Sual verirlər: Bunun qiyməti nədir? Bu yaxşı oxuyur, ya o? Nəyimə lazımdır? Bilmirsən ki, kim necə oxuyur, ara vurursan? Mən onlarla məhkəmədə üzüzə gəlməliyəm ki, aparıcılıqdan xəbəri olmayan ara qızışdır?”.

# “Əli Nur atamın ölüsünə, ailəmə dil uzatdı” - Cavidan Novruz





***”Əli Nur oğlu şəhid olmazdan əvvəl də əsəbi olub, danışanda səsini qaldırıb, teatrda hamı onun xasiyyətini bilir. Nəyin kini, davasıdır ki, ayağı boyda uşağa bu sözləri deyib?”.***

Axşam.az xəbər verir ki, bu sözləri aktyor Cavidan Novruz ”Künc-bucaq” yutub layihəsində deyib. O, Xalq artisti Əli Nurun onun və mərhum atası, Xalq artisti Ramiz Novruzla bağlı dediklərinə cavab verib: ”Mədəniyyət Nazirliyindən nümayəndələr atamın dəfninə gəldi və yasın bütün xərcini öz üzərinə götürdü. Əminəm ki, Əli Nur müsahibəmə özü baxmayıb. Demişəm ki, Əli Nur danışdı, mədəniyyət nazirliyinə səsləndi, amma orada nümayəndələr var idi. Sabahı gündə dediklərini dandı. Mən ona görə dedim ki, nümayəndələr var, danışmaq lazım deyildi. Deməmişəm, niyə gəlib? Dəliyəm belə deyim? Camaat məni yıxıb-sürüyür. Əli Nur insanları necə bu qədər inandırıb? Deyir ki, mən gəlməsəydim cəsəd ortalıqda qalmışdı. Düzdür, atamın nəşi teatrdan götürülmədi. Amma niyə ortalıqda qalsın? Məni teatrdan çıxartdıracaq dərəcədə sözlər danışır. Məni virus adlandırır. Atamın ölüsünə dil uzadıb. Başa düşə bilmirəm ki, kim onu belə qızışdırıb? Çox haqsız sözlər danışdı. Ramiz Novruz gənclərə dəstək olub. Atam haqqında necə belə şeylər deyilə bilər? Məni yandırır bunlar”.

C.Novruz atasının mərhum Xalq artisti Telman Adıgözəlov, Əməkdar artist Teymur Əmrahla küsülü olması iddiasına cavab verib: ”Atam biz övladları üçün heç nə etməyib. Məni teatra götürəndə atamın heç xəbəri olmayıb. Şəhid atası o demək deyil kiminsə ailəsinə dil uzatsın. Teymur Əmrah zəng edib ki, niyə mənim adımı çəkir? Telman Adıgözəlova son günə qədər ”əmi” demişik. Atam vəfat edəndən sonra Əli Nur məni onun otağından çıxartdırdı”.



# "Bu, məni çox həyəcanlandırır" - Tünzalə Ağayeva

***Xalq artisti Tünzalə Ağayeva bir müddət əvvəl təqdim etdiyi “Mən bu eşqə düşəni” mahnısı ilə bağlı açıqlama verib.***

Axşam.az xəbər verir ki, müğənni klip də çəkdirdiyi mahnının çox sevildiyini bildirib: ”İllərdir bu mahnı bizim yaddaşımızdadır. Şəxsən mənim də çox sevdiyim mahnılardan biridir. Məktəb illərimdən eşidib sevmişdim bu mahnını. Bildiyiniz kimi, bu mahnı Türkiyədən bizə gəlib. Onu bəstəkar Suat Sayın yazıb. Bizə bu nəğməni sevdirən dahi sənətkar, xanəndə Hacıbaba Hüseynov olub. Düzdür, bu nəğməni bir çox sənətçilər ifa ediblər, amma mənim versiyam tam fərqli oldu. Mən də arabesk, ritmik rəqs ab-havasına deyil, daha çox dramatik, lirik notlara toxunulub. Hesab edirəm ki, yanaşmam bu mahnıya çox yaraşıb.

Ümumiyyətlə, belə dillər əzbərinə çevrilən mahnıların yenidən işlənilməsi məni daim çox həyəcanlandırıb. Peşəkar yanaşma bu cür əsərlərin ömrünü uzadır, yeni nəsillərə nümunə olur, bundan gözəl nə ola bilər? Bu işim bir bəstəkar, Xalq artisti kimi zəngin Azərbaycan musiqi xəzinəmizə hədiyyəm olsun”.

Qeyd edək ki, sözügedən mahnıya çəkilən klip Xalq artisti Tünzalə Ağayevanın şəxsi “Youtube” kanalında yerləşdirilib.

# Nanə müğənniləri hədələdi: "Sizi yaxşı tanıyıram"

***”Qeybət sevmirəm. Kimsə yanımda başqasının söhbətini edəndə bilirəm ki, mənim haqqımda da orada danışır. Bu, birmənalı şəkildə belədir. Hər zaman bir cavabım var: mənə maraqlı deyil, danışmayın. Bir insan haqqında öz fikrim formalaşmalıdır. Bir insan haqqında gördüklərimə əsasən fikir söyləyə bilərəm. Başqasının fikri mənim üçün önəmli deyil. Kim məni nə qədər sevir, nə qədər dəyər verir gözəl bilirəm”.***



Axşam.az xəbər verir ki, bu sözləri aparıcı Nanə Ağamalıyeva verilişində deyib. O, proqramına dəvət etdiyi sənət adamlarına xəbərdarlıq edib: ”Əvvəl Toliklə (aparıcı-prodüser Tarix Əliyev - red.) qonşu kanalda veriliş aparırdı. Qonaq mənim verilişimdən çıxıb, gedib Tolikin verilişində başqa söz deyirdi. Yalan danışırdı. Etməyin belə şeylər. İndi də qulağıma başqa söhbətlər çatır. Hamısı həmkarlarımızdır. Bəziləri deyir ora getmədim, bura gəldim. Bunu heç vaxt etmirəm. Hamımız hamınızı yaxşı tanıyırıq. Mən də hamını yaxşı tanıyıram”.

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:12 AM Page 3





# İşləyən şəxslərin pensiyaları belə artırılacaq

***"2025-ci ilin yanvarın 1-dən etibarən bütün növ əmək pensiyaları indeksləşdirilərək artırılıb. Bu aydan isə ən aşağı pensiya 320 manatdır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, mövcud qanunvericiliyə əsasən, yaşa görə əmək pensiyası təyin edildikdən sonra işləməyə davam edən pensiyaçıların pensiyası sonradan toplanmış kapitala uyğun olaraq 6 ildən sonra yenidən hesablanaraq pensiyaya əlavə olunur:

"6 ildən sonra vətəndaşın fərdi hesabının sığorta hissəsində ödənilən məcburi dövlət sosial sığorta haqlarının 90 faizi nəzərə alınmaqla pensiya kapitalı qeydə alınır. Pensiyada yeni artım üçün işlədiyi dövr üzrə toplanmış pensiya kapitalı 72-yə (144 - 72 (pensiya təyin edilən tarixdən sonra işlədiyi ayların sayı) bölünməklə pensiya məbləği yenidən hesablanır. Bununla yanaşı, işləyən vətəndaşlarımızın pensiyalarında bu il iki dəfə artım mümkündür. Həmin şəxsin aldığı pensiya mövcud qaydalara əsasən, 8.1 faizə indeksləşdirilərək artırılır. Daha sonra onun 6 illik iş müddəti tamamlanırsa, pensiyasına əlavə olunur. Məsələn, vətəndaşımıza 2019-ci ilin fevralın 1-də yaşa görə ümumi əsaslarla 700 manat əmək pensiyası təyin edilib və şəxs işləməyə davam edib.

Onun pensiya məbləği 2025-cü ilin fevralın 1-də tarixində pensiya təyin edildikdən sonra 6 il işlədiyi üçün yenidən hesablanır. Şəxsin fərdi hesabının sığorta hissəsində bu müddətdə 25 200 manat (ödənilən məcburi dövlət sosial sığorta haqlarının 90 faizi nəzərə alınmaqla) pensiya kapitalı qeydə alınıb. Bu halda şəxsin həmin dövr üzrə toplanmış pensiya kapitalı (25 200 manat) 72-yə bölünməklə pensiya məbləği yenidən hesablanır. Bu o deməkdir ki, həmin şəxsin pensiyasına 350 manat əlavə olunur. Amma həmin vətəndaşımız əmək pensiyası aldığına görə onun pensiyası yanvarın 1-dən indeksləşdirilir. Fevral ayında həmin şəxsin yeni pensiya məbləği belə olur: 700 manat + 56.7 manat (700 manat X 8.1%) + 350 manat = 1106.7 manat. Göründüyü kimi, əmək fəaliyyəti davam edən pensiyaçılarımız işləməkdə davam edərlərsə və 6 il iş müddəti bu il tamam olarsa, o zaman həm indeksasiya artımından, həm də yenidən hesablanma artımından faydalana bilər".

# Oliqarxların ölkəyə gətirdiyi qida məhsulları ilə bağlı müəmma

## Bəzi məhsulların tərkibi ilə bağlı etiketlərdə "bitki yağı" adı altında gizlədilən qorxunc həqiqət... - Köhnə mübahisənin yeni pərdəarxası!

***Bu günlərdə məlum oldu ki, 2024-cü ildə Azərbaycana 81 milyon 932 min ABŞ dolları dəyərində 64 min 559.5 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib.***

Dövlət Statistika Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, 2023-cü illə müqayisədə bu göstərici həcm ifadəsində 41.7% və ya 18 min 989 ton, dəyər ifadəsində isə 56.5% və ya 29 milyon 589 min ABŞ dolları artıb. 2023-cü ildə Azərbaycana 52 milyon 342 min ABŞ dolları dəyərində 45 min 570 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib. Ölkəyə gətirilən 1 kq palma yağının orta idxal qiyməti 2.2 manat təşkil edib.

Hesabat dövründə Azərbaycana Malayziyadan 23 min 896 ton, İndoneziyadan isə 40 min 663.5 ton palma yağı idxal edilib.

### Palma yağı ilə bağlı bitmək bilməyən mübahisə!

Qeyd edək ki, palma yağı dünyada ən çox istifadə edilən bitki yağıdır. Şokoladdan tutmuş çipslərə qədər bir çox işlənmiş qidalarda, həmçinin təmizlik və kosmetik məhsullarda istifadə olunur. Bununla belə, Avropa Qida Təhlükəsizliyi Təşkilatına (EFSA) görə, xərçəng riski yarada bilər.

Avropa Birliyinin 2014-cü ildəki qərarına görə, palma yağının qida məhsullarında istifadəsinin bəyan edilməsi məcburidir. Lakin bu qayda kosmetik məhsullara aid deyil.

EFSA-nın məlumatına görə, palma yağı 200 dərəcədən yüksək temperaturda təmizləndikdə, digər bitki yağlarından daha çox kanserogen maddələr əmələ gəlir.

EFSA ilə yanaşı, həm Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), həm də Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (BMT) kimi təşkilatlar da palma yağının tərkibindəki kanserogen maddələrin yaratdığı təhlükəyə diqqət çəkir. Bu qurumlar palma yağından istifadə etməyi məsləhət görmürlər. Bəzi tədqiqatçılar palma yağının yüksək doymuş yağ tərkibinə görə xolesterol səviyyəsini artırdığını, infarkt və insult riskini artırdığını da bildirirlər.

Lakin "Unikal"ın araşdırması zamanı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) saytında fərqli fikirlərin yer aldığı aydınlaşıb. Qurumun rəsmi internet resursunda vurğulanır ki, palma yağları ilə bağlı mübahisələrin mənbəyi EFSA-nın 2016-cı ildə bitki yağları ilə bağlı apardığı tədqiqatdır. Sözügedən tədqiqat nəticəsində qurum bütün növ bitki yağlarının rafinasiya prosesi zamanı gündəlik normadan artıq qəbul edildikdə insan həyat və sağlamlığı üçün təhlükə yaradabiləcək 2 növ maddənin (3-MCPD, Glycidil yağ efirləri) yarandığını müəyyənləşdirib. Sitat: "Qurum həmin maddələr üçün gündəlik istifadə normasını müəyyənləşdirərək risk dəyərləndirmə fəaliyyətini həyata keçirib. Tədqiqat nəticələrində palma yağlarının rafinasiya prosesi zamanı (qoxu alma mərhələsində) 200 selsi dərəcədən artıq temperatura məruz qaldıqda sözügedən maddələrin digər bitki yağlarına nisbətdə daha çox yaranma ehtimalı olduğu qeyd edilib. Göründüyü kimi, bu tədqiqat bütün növ bitki yağlarını əhatə edir və bitki yağlarının istehsal prosesi zamanı yaranan müəyyən maddələrin gündəlik normaları ilə bağlı tövsiyələri əks etdirir.

Tədqiqatın nəticələri açıqlandıqdan sonra yanlış təhlil edilərək "palma yağları zərərlidir" kimi mətbuata ayaq açıb və insanlarda əsassız fikirlər formalaşdırılıb".




O da vurğulanır ki, palma yağının gündəlik norma çərçivəsində qəbul edilməsi orqanizm üçün təhlükəli sayılmır.

### Rəsmi dövlət qurumu bir şey deyir, ekspertlər başqa şey...

Lakin maraqlıdır ki, ölkəmizdəki mütəxəssislərin çoxu yuxarıdakı fikirlərlə razı deyil. Məsələn, Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin baş müəllimi, Dünya Tibbi Hüquq Assosasiyasının üzvü Aida Bəndəliyeva ötən il bildirib ki, palma yağı zərərləri ilə diqqət çəkir. Sitat: "Qızartma və sadə bişirmə yağı olaraq istifadə edilən bu məhsul yağın qırmızı rəngindən ayrılması və qoxusunun azalması üçün yüksək istilikdə rafinə edilməlidir. Bu üsulla istehsal olunan yağlar isə insan sağlamlığı üçün uyğun deyil. Eyni səbəbdən palma yağının da sağlamlığa zərər verməsi ehtimalı böyükdür. Onun ziyanlı xüsusiyyətləri bunlardır:

- Yüksək istilikdə istehsal edildiyindən ürək tutmalarına və infarkta, eləcə də qan təzyiqi və xolesterol balansının pozulmasına səbəb ola bilər;
- Kalori və yağ miqdarı yüksək olduğu üçün artıq çəki yaradır;
- Çətin həzm olunduğundan bağırsaq xəstəlikləri yaratmaq ehtimalı böyükdür".

### İstehsalçı saxtakarlığı, idxalçı tamahı!

Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov isə bir müddət öncə bildirmişdi ki, palma yağı ilə bağlı ziddiyyətli fikirlərə son qoyulmalıdır: "İndoneziya və Malayziyada istehsal olunur, ucuz başa gəlir. MDB məkanında palma yağına qarşı ciddi media basqısı həyata keçirilir ki, duru yağ bazarına ucuz yağ daxil olmasın. Hətta ən həssas qida sayılan və İsveçrədə istehsal olunan körpə qidalarının tərkibində də palma yağının olması barədə yazını görə bilərik. Qida məqsədilə gətirilən palma yağları Azərbaycanda istifadə olunsa da, bu, istehsalçılar tərəfindən gizlədilir. Bir neçə spred yağın etiketini təhlil edib, AQTA-ya məktub ünvanlamışam ki, bu yağların üzərində "bitki yağı" yazılıb. Hansı yağdan söhbət getdiyini bilmək istehlakçının hüququdur. Güman edirəm ki, palma yağıdır, lakin bunu gizlədirlər. Buna görə də iş aparırıq ki, palma yağının mövcudluğu malların üzərinə yazılsın. Sənaye üçün hazırlanmış palma yağlarının qida sahəsində istifadəsi düzgün deyil".

Bəs ötən il Azərbaycana idxalı öncəki ilə görə daha da artan palma yağından ölkəmizdə hansı məqsədlər üçün istifadə olunur? Bu suala dəqiq cavab verməkçətindir. Bircə o dəqiqdir ki, kimlərinsə biznes maraqları baxımından qida məhsullarının gerçək tərkibi barədə məlumatlar istehlakçılardan gizlədilir. Söhbət palma yağından da getmir. Həmin sıraya müxtəlif qida əlavələri - rəngləndiricilər, dadlandırıcılar, digər müxtəlif konservatlar da daxildir. Ekspertlər bunu istehlakçı saxtakarlığı adlandırır və qanunla cəzalandırılmasının vacibliyini vurğulayırlar.

Lakin əksər hallarda həm istehsalçılar, həm də idxalçılar üçün məsələnin bu tərəfi heç bir önəm daşımır. Sadə səbəbdən: işbazlardan ötürü qaz vurub qazan doldurmaq insan sağlamlığından daha vacibdir...

***Sənan Mirzə***

07_27 IYUI-QARA.qxd 2/21/2025 12:14 AM Page 4



# Ermənistanın referendum oyunu,
## yoxsa növbəti sülhdən yayınma fəndi...

***Xəbər verdiyimiz kimi, Ermənistan baş naziri Nikol Paşinyan fevralın 19-da xalqa müraciət edib. Baş nazir yeni konstitusiya ilə bağlı danışarkən yeni konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin zəruri olduğunu bəyan edib. Ancaq Baş nazir referendumun tarixini açıqlamayıb.***

Qeyd edək ki, sülh prosesində Azərbaycanın Ermənistana qoyduğu şərtlər içərisində konstitusiya dəyişikliyi də yer alır. Bundan başqa Minsk qrupunun da ləğv edilməsi tələb edilir. Ermənistan tərəfi Minski qrupu ilə bağlı məsələyə razı olduğunu desə də, bununla bağlı indiyə kimi heç bir addım atılmayıb.

"Ötən illər ərzində yeni Konstitusiya layihəsi ilə bağlı konsepsiyaların işlənib hazırlanması cəhdləri olub və bu konsepsiyaların mahiyyətcə işlənib hazırlandığını söyləmək olar". Bunu Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan ötən gün hökumətin iclasından sonra keçirdiyi brifinqdə deyib. Onun sözlərinə görə, Konstitusiyanın yeni mətninin hazırlanması istiqamətində iş gedir: "Biz hər şeyi etməliyik ki, Konstitusiya layihəsinin mətni yeni seçkilərə qədər hazır olsun. Aldığımız öhdəlik 2026-cı il seçkilərinə qədər Konstitusiyanın yeni mətninin hazır olmasına yönəlib. Bundan sonra təbii ki, referendumun keçirilməsi ilə bağlı qərar veriləcək".

Nazir yeni mətndə "Artsax"a istinadın çıxarılmasının mümkün olub-olmadığı ilə bağlı suala belə cavab verib: "Mən heç nəyi istisna etmirəm, bu məsələ ilə bağlı hələ yekun qərarımız yoxdur, amma bu gün mətndə olan ifadə real həyatımızda nəyisə dəyişə bilər, ya da dəyişməyə bilər".

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, Ermənistanın yeni Konstitusiyasına nə yazacağı onun daxili işidir: "Orada yenə də Azərbaycanın ərazi bütövlüyünə xələl gətirən müddəa olacaqsa, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmayacaq. Sözügedən sülh müqaviləsi bu gün Azərbaycandan daha çox Ermənistana lazımdır. Nə demələrindən asılı olmayaraq, Zəngəzur dəhlizinin açılması, Azərbaycan ərazisindən keçərək Rusiyaya daxil olmaları Ermənistana hava-su kimi lazımdır.

Sülh müqaviləsi olmasa, Azərbaycanla Ermənistanın sərhədi açılmayacaq. Beləliklə, Ermənistanın iqtisadiyyatı yenə də tənəzzüldə qalacaq", - deyə o qeyd edib.

A.Mirzəzadə əlavə edib ki, Ermənistan Azərbaycanın tələbini qəbul etməyə məcburdur: "İndiki Konstitusiya onlar Müstəqillik bəyannaməsinə istinad edirlər. Adıçəkilən bəyannamədə isə Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-ə birləşməsi barəsində 1989-cu ilin dekabrındakı müddəa öz əksini tapıb.

Buna görə də, Ermənistan əgər gələcəyini görmək istəyirsə, o bəndi çıxarmalıdır. Qalan işlər isə onların daxili işidir.

Vaxtaşırı Ermənistan rəsmiləri bildirirlər ki, sülh müqaviləsinin 17 bəndindən 15-i razılaşdırılıb. Deyirlər ki, 15 bəndə indidən qol çəkək. Azərbaycana isə yarımçıq sülh lazım deyil. Biz yarımçıq müqavilə imzalasaq, onda gələcəkdə yeni münaqişə baş verə bilər.

Kim bilirdi ki, 1923-cü ildə Azərbaycan ərazisində heç bir ehtiyac olmadan bir qrup Ermənistan sakini üçün muxtariyyət yaradanda bu, yer altında qalan mina kimi üstündən 65 il keçəndən sonra partlayacaq? Bir daha qeyd edək ki, Ermənistan öz Konstitusiyasındakı dəyişikliyi nə qədər tez etsə, onlar üçün bir o qədər yaxşı olacaq".



Politoloq Elxan Şahinoğlu bildirib ki, Konstitusiya dəyişikliyi ilə bağlı referendum keçirilsə, bu, sülh sazişinin imzalanması ehtimalını artıracaq: "Ermənistanın baş naziri Nikol Paşinyan xalqa bugünkü müraciətində Konstitusiyanın dəyişdirilməsi üçün referendum keçirilməsinin vacibliyini bildirib. Paşinyan referendumu il ərzində keçirərsə, bu Azərbaycanla sülh sazişinin imzalanması ehtimalını artıracaq. Paşinyan xalqa video müraciətində sülhə ayrıca bölmə həsr edib. Həmin bölmədə Paşinyanın bu fikirləri yer alıb: "Sülh xarici dəstək olmadan qonşular arasında yaşamaq bacarığıdır. Sülh bərqərar olduqdan sonra bu, iqtisadi, siyasi və mədəni əməkdaşlıqda özünü ifadə edən xarici əlaqələrin son məqsədi olmaqda davam edir. Sülh, ilk növbədə, regional amildir, çünki sülh və ya onun olmaması ilk növbədə yaxın qonşularla münasibətlərdə, sonra beynəlxalq, daha sonra isə qlobal səviyyədə ifadə olunur. Strateji və uzunmüddətli mənada sülh o zaman mümkündür ki, bu, kənar dəstək olmadan qonşularla əməkdaşlıq mühitində yaşamaq bacarığı ilə ifadə edilməli olan bir bacarıq halına gəlir. Sülh təhlükəsizliyin ən etibarlı təminatıdır. Təhlükəsizliyin təmin edilməsinin ən mühüm komponentləri region ölkələrinin qarşılıqlı asılılığı, ölkənin regional və qlobal təchizat və ticarət zəncirindəki yeridir". Paşinyanın sülhə həsr etdiyi bölmə onun etirafıdır ki, Ermənistan gah Rusiya, gah Fransa, gah da ABŞ-a arxalanaraq təhlükəsizliyini təmin edə bilməyəcək, ermənilər üçün sülhün yeganə təminatı qonşularla, o cümlədən Azərbaycan və Türkiyə ilə normal münasibətlərin yaradılmasıdır".

Politoloq vurğulayıb ki, Azərbaycanla və Türkiyə ilə münasibətlərin yaradılması üçün Ermənistan bir sıra addımlar atmalıdır: "Bunun üçün birincisi, Paşinyan Ermənistan Konstitusiyasında Azərbaycana və Türkiyəyə ərazi iddialarını ehtiva edən bəndləri çıxarmalı, ikincisi, Zəngəzur dəhlizinin reallaşmasına şərait yaratmalı, üçüncüsü sərhədin "monitorinqi" adı altında Ermənistanda yerləşdirdiyi Qərbin hərbi heyətinin fəaliyyətinə ehtiyac olmadığını bəyan etməlidir. Bunlar edilərsə, Paşinyan ümid etdiyi regional sülhü yaxınlaşdıra bilər".

Müxalifətə gəlincə, politoloq "Ermənistan müxalifətinin baş nazir Nikol Paşinyanın yeni Konstitusiyanın qəbulunun vacibliyi barədə dünənki açıqlamasına cavab verməyə taqəti qalmayıb. Müxalifət "Konstitusiyaya deymə" tələbini irəli sürə bilmir, çünki bilir ki, onu eşidən olmayacaq. Bu səbəbdən Paşinyan müxalifətə boylanmadan Konstitusiyanı dəyişib Azərbaycanla sülhü yaxınlaşdıra bilər. Ancaq Paşinyan Konstitusiyanı dəyişdirmək məqsədilə referendumu gecikdirməməlidir. Ermənistanın ədliyyə naziri Srbui Qalyan yeni Konstitisyanın 2026-cı il parlament seçkilərinə qədər hazır ola biləcəyini deyib. Nazir yeni mətn üzərində işlərə başlanıldığının anonsunu verib. Ancaq ədliyyə nazirinin sözlərinə görə, yeni Konstitusiya ilə bağlı referendum parlament seçkilərindən sonra keçirilməlidir. Paşinyan nə qədər ki, müxalifətdən güclüdür, referendumu keçirib, özünün də söylədiyi kimi Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışmalıdır", - deyərək fikrini tamamlayıb.

***M.İbrahimli***



# İrəvan Qarabağla bağlı bəndləri yeni Təhlükəsizlik Strategiyasından çıxaracaq

***"Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyasında çox güman ki, artıq Ermənistan tərəfinin Dağlıq Qarabağa (Qarabağ - red.) təminatları ilə bağlı bəndlər olmayacaq".***

"Unikal" xəbər verir ki, bu fikirləri "Ana Ermənistan" müxalifət hərəkatının rəhbəri Andranik Tevanyan açıqlayıb.

Onun sözlərinə görə, yeni Milli Təhlükəsizlik Strategiyasında həmçinin Rusiya-Ermənistan münasibətlərinə yanaşma da yenidən nəzərdən keçirilə bilər: "Təhlükəsizlik strategiyasında Ermənistanın Qarabağın təhlükəsizliyinin təminatçısı olması ilə bağlı bənd var. Hələlik biz hansı dəyişikliklərin ediləcəyini təxmin edə bilərik, lakin indiki Ermənistan hakimiyyətinin 2022-ci il oktyabrın 6-da Qarabağdan imtina etdiyini və onu Azərbaycanın bir hissəsi kimi tanıdığını nəzərə alsaq, hesab edirəm ki, bununla Ermənistan hakimiyyəti Türkiyə və Azərbaycanın Ermənistan üçün qoyduğu şərtləri yerinə yetirir".

"Ana Ermənistan" hərəkatının lideri qeyd edib ki, Rusiya ilə münasibətlərə yenidən baxılması həm də Aİ ilə münasibətlərin kəsilməsini nəzərdə tutur: "Bu, Ermənistan iqtisadiyyatına, sosial problemlərə, qazın qiymətinə və bütün əlaqələrə zərbə vuracaq. Amma Ermənistan hökuməti bu barədə danışmır, susurlar. Düzünü demək istəyirlərsə, Ermənistan öz vektorunu dəyişib başqa yolla gedəndə nə baş verəcəyini Ermənistan cəmiyyətinə izah etməlidirlər".

Tevanyanın fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan üçün xarici siyasət vektorunun dəyişməsi dəyərlər sistemi seçimi və ya demokratik prinsiplərə istiqamətlənmə deyil, sadəcə olaraq xarici qüvvələrin sifarişidir. Bununla belə, başa düşmək lazımdır ki, Qərb vektoru haqqında söhbətlər əbəsdir və ətalətlə aparılır, çünki ABŞ-da hakimiyyət dəyişib və Amerikanın yeni administrasiyası əvvəllər prezident Baydenin dövründə mövcud olan siyasəti davam etdirmək niyyətində deyil.

***Ağarza Elçinoğlu***

# Azərbaycanlı deputatlar ATƏT PA prezidenti ilə görüşüblər

***Vyanada ATƏT Parlament Assambleyasının (ATƏT PA) 24-cü qış sessiyası işə başlayıb.***



Milli Məclisin ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov fevralın 20-də sessiya çərçivəsində ATƏT PA-nın prezidenti Pia Kauma ilə görüşüb.

Milli Məclisin PA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva, Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli və ATƏT PA-nın Baş katibi Roberto Montellanın da iştirak etdikləri görüşdə ATƏT PA-nın gündəliyində olan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:15 AM Page 5



# Prezidentdən Artur Rasi-zadə ilə bağlı sərəncam



***Artur Rasizadə "Heydər Əliyev" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsaəsn, ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə və dövlət qulluğunda müstəsna xidmətlərinə görə Artur Tahir oğlu Rasizadə "Heydər Əliyev" ordeni ilə təltif edilib. Qeyd edək ki, fevralın 26-da Artur Rasi-zadənin 90 yaşı tamam olacaq.

# Prezidentdən mərkəzi icra hakimiyyəti orqanları ilə bağlı fərman

***Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsinin yeni layihəsi hazırlanacaq.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Fərmana əsasən, Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsinin yeni layihəsini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

# Ədliyyə Nazirliyinin aparatının işçilərinin say həddi artırılıb

***Ədliyyə Nazirliyinin aparatının işçilərinin say həddi artırılıb.***

"Unikal"ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Ədliyyə Nazirliyinin aparatının işçilərinin say həddi 455-dən 473 ştat vahidinə qaldırılıb.

# Arayik Qarabağ münaqişəsinə görə onları ittiham etdi

**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi fevralın 20-də davam etdirilib.**

"Unikal" xəbər verir ki, təqsirləndirilən şəxslərdən Arayik Harutyunyan bir qədər geniş danışaraq baş vermiş cinayət hadisələri ilə bağlı təəssüf hissi keçirdiyini bildirib.O deyib: "Mən prokurorluq tərəfindən təqdim edilmiş ittihamlarla tanış olmuşam.

# "Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz" - Prezidentdən Artur Rasi-zadəyə

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Artur Rasi-zadəni qəbul edib və ona "Heydər Əliyev" ordenini təqdim edib.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı dedi:

-Hörmətli Artur müəllim, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz uzun illər ərzində Azərbaycanın inkişafına töhfə vermisiniz. Müxtəlif məsul vəzifələrdə çalışaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük səylər göstərmisiniz həm sovet dövründə, həm də müstəqillik dövründə. Ulu Öndər Heydər Əliyev sovet dövründə sizin peşəkarlığınızı, biliklərinizi nəzərə alaraq,- hələ o vaxt siz gənc yaşlarınızda idiniz,- sizi qabağa çəkərək, önəmli vəzifələrə təyin etmişdir, Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə. Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Prezidenti seçiləndən sonra ilk təyinatlarından biri də sizi özünə köməkçi təyin etməyi idi. Ondan sonra sizi daha böyük vəzifəyə layiq gördü və Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi.

Təbii olaraq, Ulu Öndər Hey-



dər Əliyev insanları tanıyırdı, onların peşəkarlığını, biliklərini və bilirəm ki, sizi də bir insan kimi həmişə yüksək qiymətləndirirdi. Həm dediyim keyfiyyətlərə, eyni zamanda, prinsipial mövqeyinizə görə. Sizin prinsipial mövqeyiniz bütün məsələlərdə özünü göstərirdi - həm ölkəmizin iqtisadi inkişafı ilə, həm də bütün başqa məsələlərlə bağlı.

Biz sizinlə 15 il işləmişik - 2003-cü ildən 2018-ci ilə qədər. Hesab edirəm ki, o illər Azərbaycan iqtisadiyyatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Azərbaycan iqtisadiyyatı o illərdə bəlkə də iki dəfə çox artmışdır və ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli, ya da ki, başlanması məhz o illərə təsadüf edir. Sizin rəhbərliyinizlə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını ləyaqətlə yerinə yetirirdi və bu gün Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təbii olaraq bizim müstəqilliyimizin əsasını təşkil edir. Birlikdə işlədiyimiz 15 il ərzində daim təmasda idik, məsələləri müzakirə edirdik, həll edirdik. 2018-ci ildən sonra da təmasdayıq. Şadam ki, siz yubileyinizi çox yaxşı fiziki formada qarşılayırsınız və sizi həmişə görmək mənim üçün xoşdur. İllər boyunca bir çox telefon söhbətimiz olubdur, bir çox məsələləri müzakirə etmişik. Sizi bu gün gözəl yubiley ərəfəsində dəvət etdim ki, sizə Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordenini təqdim edim. Bu gün imzaladığım Sərəncamla siz ölkəmizin ən ali mükafatına layiq görülmüsünüz. Siz buna layiqsiniz, siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz. Yenə də deyirəm, həm sovet dövründə, həm müstəqillik dövründə, özü də müstəqilliyimizin ən ağır dövrlərində atamın yanında olmusunuz. O, bunu qiymətləndirirdi, mən də həmişə qiymətləndirirəm və qiymətləndirirəm. Bu, tam ədalətli bir qərardır və icazə verin, mən bu yüksək ordeni sizə təqdim edim.

# Ceyhun Bayramov Oleksandr Mişenko ilə görüşüb

***20 fevral 2025-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenkonu qəbul edib.***

Görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyinin aktual məsələləri, habelə regiondakı vəziyyət haqqında müzakirələr aparılıb.

Tərəflər görüş zamanı dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına dair iki ölkə tərəfindən davamlı şəkildə nümayiş etdirilən mövqenin, habelə ölkələr arasında beynəlxalq hüququn fundamental prinsiplərinə və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin vacibliyini vurğulayıblar.

Qarşı tərəf Azərbaycanın Ukraynanın münaqişədən zərər çəkmiş bölgələrinin bərpa və yenidən qurulmasına töhfəsinin, habelə Ukrayna xalqına göndərilən humanitar yardımların yüksək qiymətləndirildiyini qeyd edib.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə, Azərbaycan Respublikası və Ukrayna Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Samir Şərifov, Ukrayna tərəfindən isə Oleksandr Mişenko rəhbərlik edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# BBC-nin bağlanması ilə bağlı XİN-dən açıqlama

***BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi məsələsinin siyasiləşdirilməsi, məsələnin mahiyyətinin BBC tərəfindən təhrif olunması, ümumilikdə ikili standartlar yanaşması nəzərə alınaraq media azadlığı məsələsinə dair ölkəmizə qarşı BBC-nin açıqlaması təəssüf doğurur və qəbuledilməzdir.***

"Unikal" xəbər verir ki, bunu XİN sözçüsü Ayxan Hacızadə BBC tərəfindən 20 fevral tarixində verilmiş bəyanata əsasən, Azərbaycan tərəfi BBC-nin Azərbaycan Respublikasındakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi barədə qərarını şərh edərkən deyib.

O bildirib ki, BBC-nin ölkəmizdəki nümayəndəliyinin bağlanması ilə bağlı qərar müvafiq şəkildə 13 fevral tarixində Xarici İşlər Nazirliyi tərəfindən BBC-nin ölkəmizdəki nümayəndələri ilə görüş zamanı rəsmi şəkildə çatdırılıb və mövqeyimiz tam şəkildə qarşı tərəfə izah olunub:

"Azərbaycan Respublikasının bütün xarici ölkələrin media qurumları ilə münasibətlərdə və qərarlarda hər zaman qarşılılıq prinsipini əsas götürdüyü qarşı tərəfə bildirilib. Bu çərçivədə aparılmış təhlillər nəticəsində, eləcə də ölkə qanunvericiliyi, xüsusilə Media haqqında qanunun 11.2 maddəsi əsas götürülməklə BBC-nin ölkəmizdə nümayəndəlik qismində fəaliyyət göstərməsi üçün




hüquqi əsas olmadığı diqqətə çatdırılıb.

Qeyd edək ki, nümayəndəliyin bağlanması qərarının "BBC" yayım şirkətinin ölkəmizdə müxbir fəaliyyətinə aidiyyəti yoxdur və 1 nəfər müxbir üçün akkreditasiya verilməsi nəzərdə tutulub.

Xatırlatmaq istərdik ki, oxşar qərarlar bəzi digər xarici media qurumları ilə bağlı da verilib".

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:15 AM Page 6



# İlham Əliyev İran İslam Şurası Məclisinin sədrini qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Prezidenti iki ölkənin xalqlarının ortaq tarixi, mədəni və dini köklərinin olduğunu, xalqlarımızın yaxınlığını vurğuladı.

Son dövrlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasını məmnunluqla qeyd edən Prezident İlham Əliyev bunu əlaqələrimizin dinamik surətdə inkişafının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin parlamentlərarası əlaqələrinin genişləndiyini qeyd etdi və İran İslam Şurası Məclisinin sədrinin Azərbaycana səfərinin bu əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti iqtisadi-ticari, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu. Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu dəhlizin Azərbaycana aid olan hissəsində yükdaşıma imkanlarının artırılması üçün ölkəmiz tərəfindən zəruri işlərin görüldüyünü dedi. Dövlətimizin başçısı Ağbənd keçidinin inşası istiqamətində fəaliyyətin intensiv şəkildə həyata keçirildiyini və bu layihənin regionun nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini qeyd etdi.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələri tərəfindən həll edilməli və bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməz olduğunu dedi, 3+3 formatının əhəmiyyətini vurğuladı.

Məhəmməd Baqir Qalibaf İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırılmasını xahiş etdi.

Qonaq Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının Bakıda yüksək səviyyədə təşkil olunduğunu söylədi, iki ölkə arasında səfərlərin intensiv xarakter daşımasından məmnunluğunu diqqətə çatdırdı.

Azərbaycan ilə İran arasında iqtisadiyyat, ticarət, elm, texnologiya, səhiyyə sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanların olduğunu vurğulayan Məhəmməd Baqir Qalibaf bu xüsusda hökumətlərarası komissiyanın işinin daha da intensivləşdirilməsinin vacibliyinə toxundu.

Ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən qonaq İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirdi. O, Azərbaycan ilə İranın beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyini və yaxından əməkdaşlıq etdiklərini vurğulayaraq, 3+3 formatının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Baqir Qalibaf dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Ümumi orta təhsil bazasında kolleclərə tələbə qəbulu elan edildi

***Ümumi (9 illik) orta təhsil bazasında kolleclərə tələbə qəbulu elan edilib.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Qeyd olunub ki, orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu 2025-ci il fevralın 20-dən martın 5-dək internet vasitəsilə aparılır.

Abituriyentlər Dövlət İmtahan Mərkəzinin internet saytının ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurur və ərizəni təsdiq edirlər (etdirirlər). Müsabiqədə iştirak ödənişlidir. Abituriyentlər ərizəni təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqda onların şəxsi kabinetlərindəki hesablarından çıxılır. Abituriyentin imtahanda dövlət büdcəsinin vəsaiti hesabına və ya ödənişli əsaslarla iştirak etməsi barədə məlumat




"Abituriyentin elektron ərizəsi" proqramı tərəfindən abituriyentə təqdim olunur.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.1-ci bəndinə əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.3-1.7-ci bəndlərinə əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir: Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları; şəhid ailəsinin üzvləri; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar; məcburi köçkün statusu olan şəxslər; I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

# Naxçıvanda Dövlət Vergi Xidmətinin rəisi işdən çıxarıldı



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov fevralın 19-da Cavid Muxtar oğlu Kəngərlinin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin digər sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə rəis təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Tural Rasim oğlu Abdulzadəyə həvalə edilib.

# Kütləvi kiber hücumla bağlı MEDİA-dan açıqlama

***20 fevral 2025-ci il tarixində ölkəmizin bir sıra onlayn media resurslarına qarşı həyata keçirilən kütləvi kiber hücumu Azərbaycanın informasiya təhlükəsizliyinə təhdid kimi qiymətləndirir və bildiririk ki, veb-saytların fəaliyyətinin bərpası istiqamətində zəruri tədbirlər görülməkdədir.***

"Unikal" xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi (MEDİA) açıqlama yayıb.

Açıqlamada deyilir ki, hazırda müvafiq dövlət qurumları tərəfindən kütləvi kiber hücumun nəticələrinin aradan qaldırılması və gələcəkdə belə halların təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

"Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələr tərəfindən nəinki dezinformasiya və yanlış xəbərlərin yayılması, habelə media infrastrukturuna müdaxilə olunaraq məlumatın mənbədən silinməsi və dəyişdirilməsi cəhdləri ilə hədəfə alınır.

Bu kimi halların qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa çağırırıq", - açıqlamada qeyd olunub.

Xatırladaq ki, "Global Media Group"un nəzdində fəaliyyət göstərən onlayn resurslara kütləvi haker hücumu həyata keçirilir. Bu kiberhücumlarla əlaqədar hazırda "Report.Az", "Oxu.Az", "Media.Az", "Baku.ws", ''Caliber.Az" saytlarının və "Baku TV"nin fəaliyyətində problem yaranıb.

# İnarə Vəliyeva yüksək vəzifəyə təyin edildi

***"Bakı Metropoliteni" QSC sədrinə yeni müşavir təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Bakı Metropoliteni" məlumat yayıb. Bildirilib ki, sözügedən vəzifə İnarə Vəliyevaya həvalə edilib.

Qeyd edək ki, o, bu təyinatadək İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri vəzifələrində çalışıb.

# Şagirdlərin elektron yerdəyişməsi prosesinə başlanılır

***25 fevral saat 15:00-dan etibarən 2024-2025-ci tədris ilinin II yarımili üzrə şagirdlərin elektron yerdəyişməsi prosesi aktiv olacaq.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, yerdəyişmə prosesi məktəbəhazırlıq qrupları, I - X sinifləri əhatə edəcək. Şagird yerdəyişməsi sy.edu.az elektron sistemi vasitəsilə aparılır.

Qeyd edək ki, 25 fevral 2025-ci il tarixindən XI siniflər üzrə şagirdlərin yerdəyişməsi aparılmayacaq. Həmçinin, ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarına az müddət qaldığını nəzərə alaraq IX sinif üzrə yerdəyişmə prosesi 5 mart 2025-ci il saat 18:00-da dayandırılacaq və tədris ilinin sonunadək aktiv edilməyəcək.

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:15 AM Page 7



# Gənclər və idman nazirinin səlahiyyətləri artırıldı



***Gənclər və idman nazirinin səlahiyyətləri artırılıb.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyev imzaladığı Fərmanla "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də edilən dəyişikliklərdə əksini tapıb.

Nazirin səlahiyyətləri sırasına dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürmək, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla nazirlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin etmək və nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər vermək daxil edilib.

# Kamran Əliyev iki xanımı yeni vəzifəyə təyin etdi

***Baş Prokurorluğun Mətbuat xidmətinə yeni əməkdaş təyin edilib.***

"Unikal" xəbər verir ki, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən Suad Qəhrəmanova Mətbuat xidmətinin prokuroru vəzifəsinə təyin olunub.

Qeyd edək ki, Suad Qəhrəmanova 2021-ci ildə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa qəbul olunub, bu təyinata qədər Bakı şəhəri Xətai rayon prokurorunun köməkçisi vəzifəsində işləyib.

Digər müfaviq əmrlə Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Pərvin Bağırova Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru vəzifəsinə təyin edilib.

Prokurorluq orqanlarında gender bərabərliyi nəzərə alınmaqla prokurorluğun gənc, yüksək nəzəri bilik və peşə hazırlığına malik kadrlarla komplektləşdirilməsi istiqamətində görülən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Daha 90 milyon ölkəmizə qaytarıldı



***Xəbər verildiyi kimi, xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlar əsasında prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, hazırkı vaxtadək Bakı şəhərinin Xəzər, Yasamal və Xətai rayon prokurorluqları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bəzi sahibkarlıq subyektlərinin xarici ölkələrə ixrac edilmiş kənd təsərrüfatı məhsullarının alqı-satqısından əldə etdikləri pul vəsaitlərinin 53,3 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 90,6 milyon manatdan artıq) hissəsinin ölkəmizdə müvəkkil edilmiş bank hesabına qaytarılması təmin edilib.

Prokurorluq orqanları tərəfindən bu kateqoriya araşdırmalara dair, yəni müxtəlif şəxslər tərəfindən mal və məhsulların ixracı nəticəsində əldə edilən pul vəsaitlərinin ölkəmizdə müvəkkil bank hesablarına qaytarılması istiqamətində zəruri prosessual tədbirlərin icrası davam etdirilir.

# Qafqazşünaslıq İnstitutu bağlanır

***Qafqazşünalıq İnstitutu bağlanması barədə qərar qəbul olunub.***

"Unikal" xəbər verir ki, bu barədə AMEA-nın Ümumi Yığıncağında akademik İsa Həbibbəyli məlumat verib.

Qərar səsə qoyularaq qəbul olunub.

# "Ukrayna-Rusiya müharibəsi sadəcə, dondurulacaq"

## Tofiq Zülfüqarov: "Rusiyanın zəifləməsi fonunda Cənubi Qafqazda Türkiyənin güclənməsi daha çox gözləniləndir"

***Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, ABŞ-Rusiya görüşlərindən sonra hansısa nəticənin əldə oluna biləcəyindən, Ukrayna prezidenti Volodimir Zelenskinin Türkiyə səfərinin məqsədindən və Rusiya-Ukrayna müharibəsinin dayandırılmasından sonra Cənubi Qafqazda vəziyyətin necə dəyişəcəyindən danışıb.***

***-Tofiq müəllim, bu günlərdə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ABŞ-la Rusiya arasında danışıqlar oldu. Yəqin ki, belə görüşlər davam edəcək. Sizcə, bu danışıqlar Rusiya-Ukrayna müharibəsinin dayanmasına təsir göstərəcək?***

-ABŞ Prezidenti Donald Tramp bəyan etmir ki, o münaqişəni bitirmək istəyir. O, hərbi əməliyyatları dayandırmaq istəyir. Münaqişəni təşkil edən məsələlər gələcəkdə hansısa danışıqlar formatında müzakirə olunacaq. Ssenari qismən də olsa, bizim 1994-cü ildə olan vəziyyətə çox oxşayır. Yəni, biz də münaqişəni bitirməmişdik. Atəşkəs rejiminə nail olmuşduq və bundan sonra bəyan etdik ki, məsələ sülh yolu ilə həll ediləcək. Bu da Minsk qrupunun tələbi idi. İndi Tramp deyir ki, hərb variantı istifadə etməklə nə Rusiya, nə də Ukrayna öz məqsədlərinə çata bilməz. Həmçinin, Ukrayna Rusiyanı məcbur edə bilməz ki, o torpaqları azad etsin. O cümlədən Rusiya əvvəllər söyləyirdi ki, Kiyevi 3 günə götürəcək. O da buna qadir deyil. İndiki vəziyyətdə hərbi əməliyyatları davam etdirmək gətirib ona çıxaracaq ki, Rusiya ya NATO, ya da ABŞ-la qarşı-qarşıya qalacaq. İstisna olunmur ki, hansısa mərhələdə onların hərbi əməliyyatları bir-biri ilə qarşılaşsın və nüvə silahından istifadə edilsin. Burada ayrı ssenari mümkün deyil. Bu hərbi əməliyyatları dayandırmaq, vəziyyəti dondurmaq üçün səylər göstərilir. Burada həm Rusiyanın, həm Ukraynanın, həm də Qərbin öz siyasi tələbləri var. Bu mövzular sonra diplomatik danışıqlarla müzakirə oluna biləcək. Bəllidir ki, bu danışıqlar heç bir nəticə verməyəcək. Belə görünür ki, Ukraynaya kömək olmasa hərbi əməliyyatları davam etdirə bilməyəcək. Həm də Rusiya yetərincə zəifləyib və başa düşür ki, indiki mərhələdə öz məqsədlərinə çatmaq mümkün deyil. Bunu da qeyd edim ki, indiyə qədər Rusiyanın məqsədləri başa düşülən deyil. Amma Qərb öz istəyinə nail olub. Rusiya və Ukrayna arasında olan münaqişə uzunmüddətli siyasi faktor olacaq. Rusiyaya və Ukraynaya təsir etmək üçün münaqişədən istifadən olunacaq. Yəni, münaqişə ilə idarəetmə üslubu artıq formalaşıb. Xarici oyunçular tərəfindən həm Rusiya, həm də Ukraynaya qarşı istifadə ediləcək. Bu məsələdə bizim də təcrübəmizi yada salmaq olar. Əslində, bu münaqişə yaradılandan sonra bölgəni idarə etmək üçün istifadə olunub. İndi isə Azərbaycan bu münaqişəyə son qoyub, kənar oyunçuların idarəetmə imkanları böyük miqdarda azalıb. Bizdə olan təcrübə Ukrayna ilə Rusiya arasında olan təcrübədən fəqlidir. Düşünürəm ki, atəşkəs şəraitində Rusiya və Ukrayna arasında uzunmüddətli nəticəsiz danışıqlar davam edəcək.

***-ABŞ ilə Rusiya arasında keçirilən görüş fonunda Ukrayna Prezidenti Volodimir Zelenski Türkiyəyə səfər etdi və Prezident Rəcəb Tayyib Ərdoğanla görüş keçirdi. Bu səfəri necə qiymətləndirirsiz?***

-Gələcəkdə nəzərdə tutulan danışıqların formatı hələ də müzakirə mövzusudur. Bizdə məsələnin müzakirəsində Minsk qrupu var idisə, Ukraynada Minsk razılaşmaları birinci müharibədən sonra olmuşdu. İndi isə hansısa danışıqlar formatı təşkil olunacaq. Rusiya ilə Ukraynadan başqa ABŞ, Avropa ölkələri, bölgədə olan nüfuzlu ölkələr (Türkiyəni nəzərdə tutur) və s. bu danışıqlarda iştirak edəcək. Hesab edirəm ki, bu səfər nəticəsində Türkiyə bölgədə söz sahiblərindən biri olduğunu nümayiş etdirdi. Türkiyə burada dominant gücdür. Ən azından boğazların nəzarəti ondadır. Hansısa hərbi qüvvələrin Qara dənizə gəlməsi və orada olması Türkiyənin razılığı əsasında mümkündür. Türkiyənin bu proseslərdə iştirakı təbiidir. Bu bölgədə təhlükəsizlik sistemi də müzakirə olunacaq. Kimisi deyir Ukrayna NATO üzvü olmalıdır, digəri deyir kimsə zəmanət verməlidir, təminatlar olmalıdır və s. Türkiyə gələcəkdə təhlükəsizlik mövzusunun müzakirəsində özünü çox əhəmiyyətli iştirakçı kimi görür. Ukrayna da bu mövqeyi qəbul edir.

***-Rusiya-Ukrayna müharibəsində atəşkəs elan edilsə, bu məsələ digər bölgələrə, o cümlədən qarşıdakı dövrdə Cənubi Qafqaza necə təsir göstərəcək və Zəngəzur dəhlizinin açılması istiqamətində hansı addımlar atılacaq?***

-Ukrayna-Rusiya müharibəsi sadəcə dondurulacaq. Rusiyanın siyasi, hərbi imkanları hansısa mövqelərin güclənməsinə sərf olunmalıdır. Bu, uzunmüddətli siyasi faktordur. Rusiya bu müharibə nəticəsində xeyli zəifləyib. Digər tərəfdən sanksiyalar davam edəcək. Digər proseslər isə daha aktualdır. Yəni, Rusiyanın zəifləməsi fonunda Cənubi Qafqazda Türkiyənin güclənməsi daha çox gözləniləndir. Aktiv olunmuş geopolitik layihə, yəni, Türk Dövlətləri Birliyi layihəsi Türkiyənin himayəsi altında daha sürətlə gedəcək. Əminəm ki, Qərb də Türkiyənin rolunu dəstəkləyəcək. Hamı başa düşür ki, Türkiyə burada daha böyük imkanlara malikdir. Gələcəkdə Çin-Qərb, Rusiya-Qərb, Rusiya-Çin, İran-Qərb və s. gərginlik istiqamətlərini nəzərə alsaq görəcəyik ki, burada geopolitik fəallıq Türk Dövlətləri Birliyi ilə əlaqədardır. Zəngəzur dəhlizi isə ümumi proseslərin bir hissəsidir. Onun Türk Dövlətləri Birliyinin xeyrinə həll olunması məndə heç bir şübhə doğurmur.



***Anar Kəlbiyev***

# Məmurların 19 milyon manatlıq növbəti yeyintisinin şifrələri

## Həftənin sualı: niyə həbslər onların gözünü qorxutmur? - Ceyhun Cəfərov nümunəsi!

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, ötən il Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti dövlət büdcəsindən vəsait alan 100 təşkilatda nəzarət tədbirləri həyata keçirib.***

Nazirlikdən bildirilib ki, hesabat dövründə Xidmətin fəaliyyətinin əsas hissəsini Baş Prokurorluqdan və hüquq-mühafizə orqanlarından daxil olmuş məktub və qərarların icrası ilə əlaqədar aparılan nəzarət tədbirləri təşkil edib: "Belə ki, prokurorluq və hüquq-mühafizə orqanlarının məktublarına və qərarlarına əsasən 57 təşkilatda yoxlamalar aparılıb, bu yoxlamalarla 13.331,5 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib.

Xidmət 2024-cü ildə 38 təşkilatda yoxlamalar aparıb ki, bu yoxlamalarla aşkar olunmuş 6.360,1 min manat məbləğində artıq və əsassız ödənişlərin 5.146,6 min manat hissəsinin yoxlamaların gedişində və yoxlamalardan sonrakı dövrdə təqsirkar şəxslər tərəfindən dövlət büdcəsinə ödənilməklə, habelə iş və xidmətlərin yerinə yetirilməsi yolu ilə bərpası təmin edilib, həmin nəzarət obyektlərindən 2 təşkilat üzrə aşkar olunmuş 1.213,5 min manat məbləğində nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlama materialları Baş Prokurorluğa göndərilib.

Bundan başqa, Xidmət tərəfindən vətəndaş müraciətlərinə əsasən 5 təşkilatda müraciətlərdə göstərilən hallar üzrə yoxlamalar aparılıb və nəticədə cəmi 4,5 min manat məbləğində artıq və əsassız ödənişlərə yol verildiyi aşkar olunub. Yoxlamalarla aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün nəticələr üzrə tərtib edilmiş sənədlər Baş Prokurorluğa göndərilib".

Xidməti yoxlamalar zamanı 45 nəfər vəzifəli şəxsə 40,6 min manat məbləğində cərimələr tətbiq edilib və həmin cərimələr dövlət büdcəsinə ödənilib.

Beləliklə, təkcə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti ötən il ayrı-ayrı məmurların dövlət büdcəsindən ayrılan 19 milyon manat vəsaitin artıq və əsassız ödənişlər yolu ilə faktiki şəkildə yeyinti predmetinə çevrildiyini ortaya çıxarıb. Nəzərə alsaq ki, Hesablama Palatasının 2024-cü ildə apardığı auditlər zamanı da ayrı-ayrı dövlət qurumlarında büdcə pullarının təyinatı üzrə, effektiv xərclənməsinə dair çox sayda pozuntular aşkarlanıb, onda mənzərə xeyli aydınlaşır. Məlum olur ki, son illərdə çox sayda məmur həbslərinə baxmayaraq bəzi vəzifəli şəxslər hələ də yeyintilərə, mənimsəmələrə yol verməkdən çəkinmirlər.

Bəs bunun səbəbi nədir?

Əlbəttə, yuxarıdakı sualın cavabını bir sıra məmurların "daşı dələn tamahı"nda axtarmaq olar.

Lakin yeganə səbəb çətin ki, sərvət hərisliyi olsun.

Görünür, müəyyən vəzifəli şəxsləri cəsarətləndirən başqa məqamlar da var. Məsələn, korrupsiya səbəbindən həbsə atılan bəzi məmurların ağır cəzalar almalarına baxmayaraq, cəmi 3-4 il sonra azadlığa çıxması kimi!

Elə sonuncu faktı götürək: Maliyyə Nazirliyinin ötən il 19 milyon manatdan çox artıq və əsassız ödənişlər aşkarladığına dair rəsmi məlumat yayıldığı gün korrupsiya ittihamları ilə məhkum edilmiş sabiq icra başçısı Ceyhun Cəfərovun cəzaçəkmə müddətinin başa çatdığı aydınlaşdı. Məlum oldu ki, bir ay əvvəl də Ceyhun Cəfərovla birlikdə həbs olunan birinci müavini Tacəddin Novruzov azadlığa buraxılıb.



Xatırladaq ki, 2020-ci ilin avqustunda Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Kürdəmirdəki qanun pozuntularına qarşı əməliyyat keçirmişdi. Əməliyyat çərçivəsində rayonun icra başçısı və başqa vəzifəlilər cinayət məsuliyyətinə cəlb edilmişdi. Ceyhun Cəfərov ilk növbədə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il 6 ay azadlıqdan məhrum olunmuşdu. Lakin sonradan silsilə qərarlarla onun azadlığa yolu açıldı: dövlətə vurulan ziyanın ödənildiyi əsas gətirilib öncə Şirvan Apellyasiya Məhkəməsi cəza müddətini 6 ilə endirdi, daha sonra Ali Məhkəmənin qərarı ilə həmin müddət 4 il 6 aya qədər azaldıldı!

Üstəlik, Ceyhun Cəfərovun son 1 il 2 ayı məntəqə tipli cəzaçəkmə müəssisəsində keçirdiyi bildirilir. Bu isə o deməkdir ki, korrupsiyaya görə həbs olunmuş sabiq icra başçısı müdriyyətin icazəsi ilə müəyyən vaxtlarda cəzaçəkmə müəssisəsindən kənara çıxmaq imkanı qazanırmış.

Uzun sözün qısası, ağır cinayətlərdə olan eks-məmur vurtut 4 il həbsdə qalıb.

Qeyd edək ki, oxşar təcrübəyə korrupsiya səbəbindən həbs olunan bir sıra digər vəzifəli şəxslərlə bağlı da rast glirik.

Ekspertlər də, cəmiyyət də bir fikirdə həmrəydir: büdcə talançılığına yol verənlərin ağır cəzalar alıb, ancaq sonda 2-3, uzağı 3-4 il həbsdə qalıb sonra da azadlığa çıxması, vəzifədə ikən qanunsuz topladıqları sərvəti xımır-xımır yeməsi arzuedilən deyil. Hesab edilir ki, bu, korrupsiya ilə mübarizənin effektivliyini azaldır, ən əsası, məmurları yeyintiyə cəsarətləndirir. Çünki onlar fikirləşirlər ki, nə qədər iş başındadırlar, büdcə pullarını bacardıqları qədər mənimsəsinlər, cinayət üstündə yaxalansalar belə onsuz da dəmir barmaqlıqlar ardında çox qalmayacaqlar, uzağı 2-3 ilə azadlığa çıxıb dövlətin və xalqın cibindən oğurladıqlarını rahatca xərcləyəcəklər...

Bəlkə, haqsızdırlar?

Hər halda Ceyhun Cəfərov nümunəsi belə düşünən məmurların haqsız olmadığını söyləməyə ciddi əsaslar yaradır.

***Toğrul Əliyev***

# "Bu cür hücumlar daha ciddi fəsadlara səbəb ola bilər" - Ekspert



***"Azərbaycanın bir neçə aparıcı xəbər saytı - "Report.az", "Oxu.az", "Baku.ws", "Baku tv", "Media.az" və "Caliber.az" kiberhücumlara məruz qalıb. Hücumun eyni anda və eyni üsulla həyata keçirilməsi onun koordinasiyalı və məqsədyönlü olduğunu göstərir".***

"Unikal" xəbər verir ki, bunu İKT üzrə ekspert Osman Gündüz sosial şəbəkə hesabında yazıb. O bildirib ki, kiberhücum edənlərin saytlara yerləşdirdikləri mesajlar hücumun mənbəyini müəyyən etmək üçün əsas ola bilməz: "Hücumun haradan və kim tərəfindən edildiyini müəyyənləşdirmək üçün aidiyyəti qurumlar və saytların kibertəhlükəsizliyinə cavabdeh mütəxəssislər birgə araşdırma aparmalıdır. Xüsusilə diqqətçəkən məqam odur ki, bir neçə gün əvvəl Azərbaycanın aparıcı televiziya kanallarından biri - İTV-nin saytı da kiberhücuma məruz qalmışdı. Bu ardıcıl hücumlar göstərir ki, hansısa maraqlı qüvvələr Azərbaycanın informasiya məkanını zəiflətməyə və təsir altına salmağa çalışır. Əlbəttə, burada texniki amillər də nəzərə alınmalıdır. Ola bilər ki, hakerlər eyni sistemə bağlı media resurslarının zəifliklərini aşkar edərək onları hədəfə alıblar. Lakin hücumun xarakterinə əsasən ehtimal etmək olar ki, məqsəd daha çox informasiya sahəsinə təsir göstərmək, ictimai fikrə müdaxilə etməkdir".

Onun sözlərinə görə, geniş oxucu kütləsinə malik xəbər resursları milli informasiya resurslarıdır, onların kibertəhlükəsizliyi gücləndirilməli, müdafiə sistemləri yenilənməli və mümkün hücum ssenarilərinə qarşı proaktiv tədbirlər görülməlidir: "Əks halda, bu cür hücumlar davam edə və daha ciddi fəsadlara səbəb ola bilər. Azərbaycanda son bir neçə ildə kiber sektorda, xüsusilə də dövlət sektorunun kibertəhlükəsizliyi sahəsində çox böyük işlər görülüb. Kritik sektorun təhlükəziliyi ilə bağlı ciddi infrastruktur qurulub və bu işlər davam etdirilir. Amma biznes sektoru, media sahəsinin və vətəndaş cəmiyyəti sahəsinin kibertəhlükəsizliyi ilə bağlı görüləcək işlər daha çoxdur. Fikrimizcə, MEDİA və Elektron Təhlükəsizlik Xidməti onlayn media resurslarının kibermüdafiəsini gücləndirmək üçün daha fəal rol oynamalıdır. Ümumiyyətlə, bu qurumların onlayn media sektorunun təhlükəsizliyinin təmin etmək istiqamətindəki səylərini yetərli hesab etmək olmaz. Media resurslarının sahibləri saytların dayanıqlığına resurslar ayırmalıdır. Yaxşı mütəxəssislər cəlb etməli, onların peşəkarlığının artırılmasına da resurslar ayrılmalıdır".

O.Gündüz qeyd edib ki, müasir yanaşmalar kibertəhlükəsizliyə daha ciddi diqqət ayrılmasını, bu sahəyə investisiyaların yatırılmasını və daha peşəkar mütəxəssislərin cəlb olunmasını tələb edir.

# Bu tarixlərdə "Kənddən Şəhərə" həftəsonu yarmarkası keçiriləcək



***Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən keçirilən "Kənddən Şəhərə" həftəsonu yarmarkası fəaliyyətini davam etdirir.***

"Unikal" xəbər verir ki, növbəti yarmarka 22-23 fevral tarixlərində keçiriləcək və 20-dən artıq rayondan 50-dən çox fermerin iştirakı gözlənilir. Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, yerli və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında keçirilən yarmarkada müxtəlif regionlardan əvvəlcədən qeydiyyatdan keçən fermerlər 160-dan artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər. Satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək, yarmarkanın yanında Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək.

## Sahibə Qafarova İran parlamentinin sədri ilə görüşdü



***Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb.***

Bu barədə “Unikal”a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.

Görüşdə tədbirin Bakının evsahibliyi ilə yüksək səviyyədə təşkil olunduğu vurğulanaraq, bu cür tədbirlərin həm bir sıra ciddi qlobal məsələlərin müzakirəsi baxımından mühüm platforma olduğu, eyni zamanda təşkilata üzv ölkələr arasında münasibətlərin də müzakirəsi üçün yaxşı imkan yaratdığı qeyd edilib.

Söhbət zamanı bu səfərin Məhəmməd Baqer Qalibafin ölkəmizə ilk səfəri olduğu və bu səfərin münasibətlərimizin inkişafına töhfə verəcəyi ilə bağlı inam ifadə edilib. Bildirilib ki, Azərbaycan və İran xalqları ortaq tarixi, dini və mədəni dəyərləri bölüşür. Bu, ölkələrimiz arasındakı bugünkü münasibətlərin əsasını təşkil edir və münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı təməldir.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın xarici siyasətinin prinsiplərinə, müasir beynəlxalq münasibətlər sisteminə dair baxışları ilə bağlı Prezident İlham Əliyevin fikirlərini xatırladaraq, deyib ki, bu prinsiplər dostluq, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərə riayət etmək, qarşılıqlı hörmət nümayiş etdirmək kimi prinsiplərdir. Spiker Sahibə Qafarovanın sözlərinə görə, dövlət başçımız Azərbaycanla qonşuları arasında mehriban qonşuluq və qarşılıqlı anlaşma şəraitində birgə fəaliyyətə, qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir. Eyni regionda yerləşən, qonşu olan ölkələrin bir-birinə qarşılıqlı etimadı, əməkdaşlığı yalnız onların hər birinə fayda gətirər. Elə Azərbaycan-İran münasibətlərinin hazırki vəziyyəti də bunu təsdiq edir. Vurğulanıb ki, təxminən son bir ayda həyata keçirilmiş səfərlərə, görüşlərə, danışıqlara nəzər yetirsək, iki ölkə arasında əməkdaşlıq gündəliyinin çox zəngin olduğunu görərik. Bütün bu təmaslar, danışıqlar ikitərəfli əlaqələrin inkişafına böyük təkan verir.

İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Asiya Parlament Assambleyasının Milli Məclisin ev sahibliyi ilə Bakıda keçirilən 15-ci plenar sessiyasının önəmini vurğulayaraq, müzakirəyə çıxarılan qərarların əhəmiyyətindən danışıb. Qonaq, ölkəsinin bütün qonşu dövlətlərlə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu, bu siyasətdə Azərbaycanın xüsusi yer tutduğunu qeyd edib, gələcəkdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılacağına əminliyini ifadə edib.

Görüşdə dövlətlərarası münasibətlərin mühüm bir istiqaməti kimi parlamentlərimiz arasında da əlaqələrin genişləndirilməsi, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri də nəzərdən keçirilib.

Söhbət zamanı, həmçinin bu gün Cənubi Qafqaz regionunda mövcud olan yeni imkanlar və perspektivlər barədə də danışılıb. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə yaradılan "3+3" əməkdaşlıq formatının əhəmiyyəti qeyd edilib. Bildirilib ki, regiondan kənar xarici qüvvələrin regiona cəlb edilməsi isə yaxşı heç nə vəd etmir. Məhəmməd Baqer Qalibaf da İranın "3+3" platformasını tam dəstəklədiyini, bu formatın regionda sülhə və sabitliyə, həmçinin siyasi-iqtisadi əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Qeyd olunub ki, regiona kənar ölkələrin cəlb olunması qəbuledilməzdir.

Görüşdə, həmçinin regiondakı nəqliyyat bağlantılarının, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin və Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək yol bağlantısının əhəmiyyəti xüsusi vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

# Sabiq nazir müavininin yüksək vəzifə ümidi puç oldu

## İntiqam Babayevin sədr təyin ediləcəyinə dair iddialar niyə gerçəkləşmədi?

***Məlum olduğu kimi, ötən həftə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinə yeni sədr təyin edildi. Bu, Rüfət Nahid oğlu Mahmuddur.***

Qeyd edək ki, bu təyinata qədər Rüfət Mahmud SOCAR-ın Rusiyadakı törəmə müəssisəsi - “SOCAR Rus” MMC-nin rəhbəri olub. O, 2019-22-ci illərdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri, 2009-2018-ci illərdə Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) direktorlar şurasının sədri vəzifələrində işləyib.

Rüfət Mahmud həmçinin Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və İqtisadiyyat Nazirliyində çalışıb.

Onu da deyək ki, ötən il Şahin Seyidzadə Prezidentin Sərəncamı ilə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilmişdi. Seyidzadə sentyabrın 1-də keçirilmiş VII çağırış Milli Məclisə seçkilərdə deputat seçilmişdi.

Şahin müəllimin sədr vəzifəsindən azad edilməsinin ardınca onun yerinə İntiqam Babayevin təyin olunacağına dair iddialar dolaşırdı. 1998-1999-cu illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri, 1999-2000-ci illərdə Bakı şəhər İcra Hakimiyyətinin Siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri postlarını tutan Babayev 2000-2021-ci illərdə Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini vəzifəsində çalışmışdı.

2021-ci ildə nazir müavini postunu itirən İntiqam müəllim bir müddət işsiz qaldıqdan sonra 2022-ci ilin mart ayından 2022-ci ilin dekabr ayınadək Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri işləmişdi. 2022-ci il dekabrın 20-dən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbərinin müavini vəzifəsinə gətirilən eks-nazir müavini bir neçə ay sonra, daha dəqiq desək, 2023-cü ilin mayında Aparat rəhbəri postuna təyinat almışdı.

Şahin Seyidzadə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilincə bu vəzifəyə Babayevin təyinat ala biləcəyinə dair iddialar özünü doğrultmadı. Həmin posta Rüfət Mahmudun gətirilməsindən sonra İntiqam müəllimin hətta Aparat rəhbəri olaraq qalıb-qalmayacağı da sual altına düşüb. “Unikal”a daxil olan məlumata görə, fevralın 14-də R.Mahmudun “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin kollektivinə təqdimatına keçmiş nazir müavini də qatılıb. İdarənin yeni rəhbərinin onunla işləmək istəyib-istəmədiyinin isə qarşıdakı günlərdə qətiləşəcəyi gözlənilir.



Bəs tərcümeyi-halına baxdıqda kifayət qədər mühüm vəzifələrdə çalışdığı aydınlaşan Babayevin “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəhbəri olmaq istəyi niyə reallaşmayıb? İddialara görə, buna səbəb onun nazir müavini işlədiyi dövrdəki fəaliyyəti ilə bağlı neqativ rəyin formalaşmasıdır. “Vaxtilə Gənclər və İdman Nazirliyində İntiqam müəllimin kurasiya etdiyi sahə - qrant siyasəti ilə bağlı çoxsaylı tənqidlər və ittihamlar ortaya çıxmışdı. Hətta bir sıra gənclər təşkilatlarının sədrləri Nazirlikdə qrant müsabiqələri ilə bağıl yol verilən maxinasiyalar barədə konkret faktlar gətirməyə başlamışdılar. Deyilənlərdən belə məlum olur ki, İntiqam Babayev və yaxın ətrafı böyük bir qrant mafiyası formalaşdırıblarmış, nəticədə gənclər siyasəti üzrə ayrılan vəsaitlər mənimsəmə predmetinə çevrilib. Araşdırma nəticəsində yüksək qrant alan təşkilatların əksəriyyətinin fəaliyyətsiz olduğu, bəzilərinin isə qrantdan-qranta fəaliyyət göstərdikləri üzə çıxmışdı. Məsələn, “Gənc Psixoloqlar” İctimai Birliyinin külli miqdarda qrant layihələri aldığı, lakin heç bir effektiv iş görmədiyi aydınlaşıb. Həmçinin, “Gənclər İntellektual” İB, “Dünya Azərbaycan Gənclər Beynəlxalq Həmrəylik” İB və “Fəal Gənclər” İB, “Yeni Yol Maarifləndirməsi” İB və digərlərinə yüksək məbləğlərdə qrantlar ayrıldığı, ancaq hər hansı fəaliyyətləri diqqət çəkmədiyi deyilirdi. Bildirilirdi ki, bir çoxu formal olaraq fəaliyyət göstərən təşkilatlar böyük məbləğdə qrantlar almaq müqabilində ən yaxşı halda kosmetik tədbirlər keçirməklə gözdən pərdə asıblar, faktiki olaraq həmin qrantlar havaya sovrulub. Daha doğrusu, kimlərinsə cibinə gedib" - deyə həmin vaxt vurğulanırdı.

Elə Babayevin nazir müavini postunu itirməsində də bütün bu deyilənlərin həlledici rol oynadığı vurğulanırdı. Halbuki bir çoxları mərhum gənclər və idman naziri Azad Rəhimovun vəfatının ardından bu vəzifəyə məhz İntiqam müəllimin gətiriləcəyi qənaətində idi. Lakin hazırda 51 yaşı olan keçmiş nazir müavini sürətlə yüksələn karyerası yarıda qaldı. O, nazir müavinliyindən uzaqlaşdırıldı, ardınca Nazirlər Kabinetində xeyli aşağı vəzifəyə təyin edildi. Sonradan “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri postuna gətirilən İntiqam müəllimin gələcəklə bağlı əsl hədəfinin adıçəkilən quruma sədr təyin edilmək olduğu deyilirdi. Ancaq göründüyü kimi Babayevin bu istəyi, böyük ehtimalla, sırf sabiq nazir müavini olarkən formalaşan mənfi reputasiyası səbəbindən reallaşmadı...

**_Toğrul Əliyev_**

07_27 IYUI-QARA.qxd 2/21/2025 12:15 AM Page 10



# Ziyəddin Əliyevin Ukraynadakı şirkətləri “donur”

## Sabiq icra başçısı bu ölkədəki biznesini Çexiyaya köçürür?

***“Unikal” qəzeti keçmiş məmurların və deputatların hazırda harada olduqları, nə iş gördükləri haqqında araşdırmalardan ibarət “Sabiqlərin izi ilə” layihəsini davam etdirir. Bu silsilədən növbəti yazımız 2023-cü ilin iyununda Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən Ziyəddin Əliyev haqqındadır.***

Maraqlıdır ki, Ziyəddin müəllim 60 yaşının tamam olmasına (27 iyun) bir neçə gün qalmış öz postu ilə vidalaşmalı olmuşdu. Bu qərarın səbəbi hələ də bəlli deyil. Onun təqaüd yaşına çatmadığını (hərçənd təqaüd yaşı çatdıqdan sonra da postunda saxlanılan icra başçıları az deyil) nəzərə alsaq, cəmi 6 ildir işlədiyi vəzifədən uzaqlaşdırılmasında fəaliyyəti ilə bağlı narazılıqların həlledici rol oynadığını söyləmək mümkündür.

Bu barədə bir qədər sonra...

Öncə onu deyək ki, Z.Əliyev Ermənistanın Krasnoselsk rayonunun Ardanış kəndində anadan olub. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. İxtisasca inşaat mühəndisidir.



Əmək fəaliyyətinə 1980-ci ildə ”Azərbaycan Kənd Təsərrüfatı Texnikası” Layihə Kontorunda başlayıb. 1981-1983-cü illərdə hərbi xidmətdə olub. 1984-1993-cü illərdə ”Bakı Mühəndis Tikinti” Trestində mühəndis, böyük mühəndis, müdir, 1993-1998-ci illərdə ”İnşa” Elm-İstehsalat Mərkəzinin direktoru, 1999-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Departamentinin ”Yoltəmirtikinti” Birliyində idarə rəisi, 2001-2002-ci illərdə ”Bakı Yoltikintiservis” ATSC-nin Material təchizatı sahəsinin rəisi, 2002-2008-ci illərdə ”Bakı Yol Tikinti-1” ATSC-nin direktoru, 2009-2010-cu illərdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ”Azəryolservis” ASC-nin ”77 saylı Yol İstismarı” MMC-də baş mühəndis, 2010-2013-cü illərdə ”Mühəndis Yol Təmir-Tikinti” MMC-də baş mühəndis, 2013-2015-ci illərdə ”Azəryolservis” ASC-nin ”81 saylı Yol İstismarı” MMC-nin rəisi, 2015-2017-ci illərdə ”Azəravtoyol” ASC-nin ”Bakı 2 №-li Yol İstismarı” MMC-nin direktoru vəzifələrində çalışıb.

2017-ci il dekabrın 2-də isə ona yüksək etimad göstərilib - Z.Əliyev Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Lakin bu təyinatın üstündən cəmi 1-2 il keçdikdən sonra Ziyəddin müəllimin adı bir sıra qalmaqallara qarışıb. Bu sırada rəhbərlik etdiyi Qubanın Vladimirovka kəndində ”Fayton” restoranı (istirahət kompleksi 1.5 ha ərazidə), Qəçyəş yolu yaşayış massivində 2 ədəd villa, Quba-Qonaqkənd yolu, Təngəaltıda dağ yamacında otel və restoran kompleksi, Nügədi kənd ərazi dairəsində çınqıl karxanası, asfalt zavodu və beton zavodu, İqrıq (Quba) kəndi ərazisində, Quba-Bakı yolu üzərində yanacaqdoldurma məntəqəsi, Quba şəhərinin 28 May parkında restoran əyləncə kompleksi, eləcə də şəhərin girişində iki çoxmərtəbəli binanın birinci mərtəbəsində obyektləri və s. olduğu bildirilən sabiq icra başçısının ölkə xaricində də özünə böyük biznesi qurduğu barədə xəbərlər diqqət çəkirdi.

Həmin xəbərlərdə bildirilirdi ki, Ziyəddin Əliyev Çexiyada şirkətini hələ ”Bakı Yol Tikinti-1” ATSC-nin direktoru olarkən, yəni 2008-ci ilin yanvarın 18-də açıb. İlkin nizamnamə kapitalı 200 min kron olan ”Az Servis-NR s.r.o.” (MMC) şirkətinin qeydiyyat sənədində təsisçinin 27 iyun 1963-cü il təvəllüdlü, Bakı şəhəri, Ə.Kürçaylı 7/45 ünvanında pasport qeydiyyatında olan Ziyəddin Əliyev olduğu qeyd olunub. Şirkətin adında ”NR” sonluğu Ziyəddin Əliyevin oğlanlarının adlarının baş hərfləridir.

Ziyəddin Əliyev Avropada biznesini Çexiya ilə məhdudlaşdırmayıb. Belə ki, 22 iyul 2017-ci il tarixdə o, Avstriyanın paytaxtı Vyanada daha bir şirkət qeydiyyatdan keçirib. ”S.M.A.N Business Solutions GmbH” Vyana ədliyyəsində 30 min avro nizamnamə kapitalı ilə FN 457017 i saylı lisenziya alıb. Nizamnamə üzrə fəaliyyət dairəsi daşınmaz əmlak, tikinti, ticarət sahələrini əhatə edir.

Şirkətin hissələrinin 51 faizi Ziyəddin Əliyevin Çexiyada sahibi olduğu ”Az Servis-NR s.r.o.” şirkətinə, 49 faizi isə Sübhan Məmmədli adlı şəxsə məxsus olub.

İcra başçısının oğlu Nicat Əlibəyli bir neçə il öncə Kenan Koç adlı şəxslə Avstriyanın paytaxtı Vyanada “Kena Gasto GmbH” ni təsis edib. Qastronomiya sahəsində xidmət lisenziyası alan şirkət 2019-cu il fevralın 22-də Vyana, Johannesgasse 14/1 ünvanında hüquqi qeydiyyata alınıb. İcra başçısının oğlu ilə 75/25 nisbətində ortaqlığa başlayan Kenan Koç Vyanada daha bir neçə şirkət təsis edərək restoranlar şəbəkəsi qurur. Kenan Koç qısa müddət ərzində Vyanada 3 fərqli ünvanda brendə çevrilən Kenny’s restoranlarının, ”Space Burger”, ”Pandemic Kitchen”in və ”Empire” gecə klubunun meneceri kimi məşhurlaşır.

Yerli KİV-də vaxtilə yazılanlara inansaq, Ziyəddin Əliyevin ölkə xaricindəki biznesində ən mühüm yerlərdən birini, bəlkə də, birincisini Ukrayna tutub. Hazırda savaşın getdiyi bu ölkədə sabiq icra başçısının 7 şirkəti olub. Onlardan ən məşhuru Lvov vilayətinin Nikolayevsk şəhərində benefisiarı olduğu və 7 milyon avroya başa gələn ”Alov” asfalt zavodudur.

İcra başçısının ailəsinə məxsus olduğu iddia edilmiş digər 6 şirkət isə aşağıdakılardır: “Alov” MMC, “Alov” Ticarət Evi, “Mikolayev-Lvov” İnşaat Şirkəti, “Alov-Bud” MMC, “Smanbud Tov”, ”Nikolayev-Lvov Tikinti Konstruksiya Kombinatı” Anonim Şirkəti.

Onu da deyək ki, Z.Əliyev istər ölkə daxilindəki, istərsə də onun hüdudlarından kənardakı biznesi ilə bağlı mətbuatda dərc olunmuş bu iddiaları indiyədək nə təsdiq, nə də təkzib edib.

Son məlumatlara görə, Ukrayna Respublikasında fəaliyyət göstərən şirkətlərinin gəlirləri kəskin azalıb. Hətta həmin şirkətlərdən bir çoxu bağlanma təhlükəsi ilə üz-üzədir. Burada iki məqam rol oynayıb. Birinci səbəb Rusiyanın 2022-ci ildə Ukraynaya hücumu və başlanan savaşın hələ də davam etməsi, üstəlik, müharibənin getdikcə daha qeyri-müəyyən hal almasıdır. İkinci səbəb olaraq isə sabiq icra başçısının iki il öncə vəzifəsi ilə vidalaşması göstərilir. Bildirilir ki, tutduğu post Z.Əliyevə müxtəlif imtiyazlar, ən əsası büdcə vəsaitlərinin bir qismini bu və ya digər şəkildə öz biznesinə yönəltmək imkanı verirdi. İndi həmin imkanların əlindən çıxması onun biznesinə müəyyən risklər yaradıb.

***Toğrul Əliyev***



# Rövşən Rzayev kollegiya iclası keçirdi

***Fevralın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində növbəti kollegiya iclası keçirilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, Böyük Qayıdışa dair I Dövlət Proqramının prioritet istiqamətləri üzrə tədbirlərin həyata keçirilməsi üçün zəruri işlərin aparıldığı, işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrinə əhalinin mərhələli şəkildə köçürüldüyü bildirilib. Vurğulanıb ki, dövlətimizin başçısı icrasını şəxsən nəzarətdə saxladığı bərpa-quruculuq işlərinin gedişi ilə tanış olmaq üçün Qarabağa və Şərqi Zəngəzura səfərlər edir. Bu səfərlərdə və dogma yurda qayıdan keçmiş məcburi köçkünlərlə görüşlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı böyük rəğbət doğurur.

Kollegiya iclasında Böyük Qayıdış proqramı çərçivəsində köçürülmə prosesinin təşkili, məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması, Dövlət Komitəsinin regional bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi, vətəndaşların qəbulu və müraciətlərinə baxılması, icra intizamı, məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin istismar vəziyyəti və digər məsələlər müzakirə olunub.

Müvafiq struktur bölmələrinin rəhbərlərinin məruzələri dinlənilib, iradlar, rəy və təkliflər səsləndirilib.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev ölkə rəhbərinin tapşırıqlarının və qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daha böyük məsuliyyətlə çalışmağın vacibliyini vurğulayıb. Qeyd edilib ki, Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, eləcə də Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə tədbirlərin vaxtında və dəqiqliklə yerinə yetirilməsi təmin olunmalıdır.

Kollegiyada müzakirə edilən məsələlər üzrə müvafiq qərarlar qəbul olunub və tapşırıqlar verilib.

# Ağdamda “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi yaradılır



***Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi yaradılır.***

”Unikal”ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncam Qarabağ tarixinin və mədəni irsinin dərindən öyrənilməsi, Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığı barədə tarixi faktların təbliği və gələcək nəsillərə ötürülməsi məqsədi daşıyır.

Nazirlər Kabinet:

2.1. “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin və Muzey Kompleksinə daxil ediləcək digər dövlət əmlakının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.2. Muzey Kompleksinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsinin Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilməsini təmin etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

07_27 IYUI-QARA.qxd 2/21/2025 12:15 AM Page 11






## 2024-cü ildə Yevlax şəhərində sənayenin inkişafı haqqında

***Yevlax rayonunun sənayesi emalı, elektrik enerjisi qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri ilə təşkil olunmuşdur.***

Rayon ərazisində 61 sənaye müəssisə qeydiyyatdan keçmiş 2024-cü ildə yalnız 20 müəssisə fəaliyyət göstərmişdir.

2024-cü ildə sənaye müəssisələrində malların istehsalı və sənaye xarakterli xidmətlərin həcmi 31388,2 min manat olmuşdur. Sənaye istehsalı indeksi (sabit qiymətlərlə) 98,0 faiz təşkil etmişdir. İstehsal olunmuş və göstərilmiş xidmətlərdən 17981,0 min manatı hüquqi şəxslərin, 8431,2 min manatı qeydiyyatdan keçmiş fiziki şəxslərin, 4976,0 min manatı isə ev təsərrüfatlarında sənaye fəaliyyəti ilə məşğul olan təsərrüfatların hesabına olmuşdur.

2024-cü ildə sənaye müəssisələrinin gördüyü işin həcminin 12138,3 min manatı və ya 38,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 803,7 min manatı və ya 2,5 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin, 18446,2 min manatı və ya 58,8 faizi emal sənayesinin payına düşür.

Hesabat dövrü ərzində emal sənayesinə mənsub olan qeyri-dövlət sektorunda istehsalın həcmi 18446,2 min manat olmuş və sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi 58,8 faiz təşkil etmişdir.

2025-ci il yanvarın 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında mal qalığı 336,7 min manat, ötən ilin müvafiq dövründə isə 374,3 min manat olmuşdur.

Hesabat dövründə sənaye sahəsində natura ifadəsində 1060,21 ton meyvə-tərəvəz konservləri, 198,0 ton pendir və kəsmik, 255,15 ton unlu qənnadı məmulatı, 42,61 ton beton, 8872 ədəd mebel istehsal olmuşdur.

*Hazırladı,*
*Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi*
*Şamxal Mirzəyev*

# Daha bir iri məmurun kreslosuna təhlükə

## Hesablama Palatasının aşkarladığı milyonlarla manatlıq qanunsuzluqlar Etibar Abbasova nə vəd edir?

***Bu günlərdə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin yol verdiyi bir sıra nöqsanlar üzə çıxdı. Belə ki, Hesablama Palatasının apardığı audit zamanı ilginc nöqsanlar aşkarlanıb.***

Məsələn, məlum olub ki, təhlükəsiz tullantıların "Bakı Tullantıların Enerjiyə Çevrilməsi Layihəsi" üzrə bağlanılmış 2008-ci il 15 dekabr tarixli Müqavilə şərtlərinə uyğun kalorifik dəyərlə Yandırılma zavoduna təhvil verilməməsi istehsal edilmiş elektrik enerjisinin miqdarına mənfi təsirlərə, eləcə də yandırılma prosesi üzrə enerji və qazdan istifadə səviyyəsinin artmasına səbəb olub. Və ya "Təmiz Şəhər" ASC-yə zərərsizləşdirilməsi üçün ümumilikdə 101,4 min ton miqdarında tullantını təhvil vermiş 25 qeyri-dövlət sahibkarlıq subyektinin faktiki olaraq tullantıların daşınması xidmətləri ilə məşğul olduğu, eyni nəqliyyat vasitəsi ilə 2-3 sahibkarlıq subyektinin tullantı daşıdığı hallarının mövcudluğu şəraitində tullantıların daşınmasında istifadə edilən ümumilikdə 108 nəqliyyat vasitəsindən 84-nün məişət tullantıları daşınan yük avtomobili xüsusi nəqliyyat vasitəsi olmadığı, Bakı şəhərində təhlükəsiz tullantıların daşınması ilə ixtisaslaşmayan (təhlükəsizlik normalarına cavab verməyən) şəxslərin də məşğul olduğu, eyni zamanda, qeydiyyatı tullantıların yığılması və daşınması fəaliyyətinə aid 2021-ci ildə 181, 2022-ci ildə 243, 2023-cü ildə 311 aktiv vergi ödəyiciləri tərəfindən "Təmiz Şəhər" ASC-yə hər-hansı tullantı təhvil verilmədiyi müəyyənləşdirilib.

Auditlə əhatə olunan 2021-2023-cü illərdə "Təmiz Şəhər" ASC tərəfindən zərərsizləşdirilmə üçün təhvil alınmış ümumilikdə 2525,9 min ton təhlükəsiz tullantının 93,9%-i basdırılma və yandırılmaya yönəldilərək yalnız 6,1%-nin çeşidlənməyə qəbul edilməsi təmin olunub. Bu isə ASC-nin tərkibindəki Çeşidləmə zavodunun illik istehsal gücünün bir növbəli iş rejimi ilə 51,5%-nə, iki növbəli iş rejimi ilə 25,8%-nə bərabər olmaqla bərk məişət tullantılarının ekoloji və iqtisadi cəhətdən daha səmərəli və nəticəli zərərsizləşdirilməsi üsullarının üstünlük təşkil etmədiyini göstərib.

Daha bir maraqlı məqam: "Balaxanı Bərk məişət tullantılarının yandırılması zavodunun 2013-2023-cü illərdəki fəaliyyəti müddətində yaranan ("Təmiz Şəhər" ASC-nin vasitəsi ilə) 363271,7 min manat məbləğində xərclərin 120755,3 min manat məbləğində daxilolmalarını 3,0 dəfə üstələməsi, o cümlədən illik əməliyyat və texniki xidmət haqqı məbləğlərinin yüksək olması səbəbindən bərk məişət tullantılarının yandırılması ilə enerjiyə çevrilməsi üzrə 11 il ərzində aktiv fazada icra edilməkdə olan layihənin iqtisadi cəhətdən səmərəli və nəticəli olmadığını göstərib.

Hesablama Palatasının yoxlamaları nəticəsində özəl audit təşkilatlarının hesabatları nəzərə alınmaqla "Təmiz Şəhər" ASC tərəfindən 2020-ci ildə 2,6 mln. manat, 2021-ci ildə 0,3 mln. manat və 2023-cü ildə 5,2 mln. manat məbləğində vəsaitlərin artıq ödənilməsi müəyyənləşdirilib, artıq ödənilmiş həmin məbləğlərin, müvafiq olaraq növbəti illərdə Yandırılma zavodunun operatoru tərəfindən ASC-nin hesablaşma hesabına qaytarılmasına baxmayaraq dövlət büdcəsindən ayrılan subsidiya məbləğlərinin müvafiq hədlərdə azaldılması üçün aidiyyəti üzrə təşəbbüslər irəli sürülməmiş və dövlət büdcəsinin vəsaitlərinə qənaət edilməsi imkanlarından istifadə edilməyib.

Bakı ŞİH-nin 03.10.2013-cü il tarixli sərəncamı ilə Xəzər rayonu, Şüvəlan qəsəbəsinin cənub-şərq hissəsində köhnə daş karxanasının yaxınlığındakı 2,9 hektar torpaq sahəsinin ötürücü məntəqə və çeşidləmə xəttinin qurulması üçün "Təmiz Şəhər" ASC-nin daimi istifadəsinə verilməsi və "Şüvəlan bərk məişət tullantılarının yüklənmə-boşaltma məntəqəsinin layihə-smeta sənədlərinin hazırlanması işləri"nin satınalınması predmeti üzrə 292,6 min manat məbləğində bağlanmaqla yerinə yetirilmiş müqavilə üzrə hesablaşmaların aparılması şəraitində tikinti işlərinin başlanılması ilə əlaqədar ünvanlanmış məktuba cavab olaraq Bakı ŞİH tərəfindən (07.03.2023-cü il tarixli məktubla) sözügedən layihənin reallaşdırılması üçün digər sahənin müəyyənləşdirilməsi məsələsinə baxılması təklif edilmişdir ki, bu da təhlükəsiz tullantıların Bakı şəhəri üzrə zərərsizləşdirmə infrastrukturunun genişləndirilməsinin yubadılması ilə yanaşı dövlət vəsaitinin səmərəsiz xərclənməsini də şərtləndirmişdir.



Həmçinin Böyükşor gölünün mühafizə zonasında Təhlükəli Tullantılar Poliqonunun tikintisinin məqsədəuyğun olmadığı və alternativ variantların nəzərdən keçirilməsinin məqsədəuyğun hesab edildiyi bildirilib, bu da müvafiq tullantıların Bakı şəhəri üzrə zərərsizləşdirmə infrastrukturunun genişləndirilməsinin yubadılması ilə yanaşı ümumilikdə 669,1 min manat məbləğində dövlət vəsaitinin də səmərəsiz xərclənməsini şərtləndirib.

Digər tərəfdən, "Təmiz Şəhər" ASC tərəfindən təhlükəli tullantıların zərərsizləşdirilməsi fəaliyyətinin həyata keçirilməsi müvafiq qaydada razılaşdırılmadan "Təhlükəli tibbi tullantılarının sterilizasiyası avadanlığının alınması" predmeti üzrə 1,5 mln. manat məbləğində satınalma müqaviləsinin bağlanılmasına yol verilib, icra olunmuş ödənişin müqabilində isə 2 ədəd təhlükəli tibbi tullantıların sterilizasiyası avadanlığının alınmasına baxmayaraq quraşdırılması təmin edilməyib. Bu isə dövlət vəsaitlərinin hüquqi mandata uyğun olmayan istiqamətlərdə səmərəsiz və nəticəsiz xərclənməsi deməkdir.

Sadalananlardan başqa, 278,8 min manat məbləğində dövlət vəsaitinin xərclənməsi müqabilində əldə edilmiş "Təmiz Şəhər"in kommersiya, maliyyə, vergi və hüquq diaqnostikası" adlı sənədin ASC-nin fəaliyyətində praktiki olaraq tətbiq edilməsi cari auditlə toplanmış sübutlarla öz təsdiqini tapmayıb.

Onu da deyək ki, yuxarıdakılar Hesablama Palatasının aşkarladığı nöqsanların bir qismidir. Audit zamanı "Təmiz Şəhər"in fəaliyyətində çoxsaylı digər qüsurlar da ortaya çıxıb.

Qeyd edək ki, adı çəkilən quruma Etibar Abbasov rəhbərlik edir. O, 2016-cı ildə bu posta təyinat alıb. Həmin təyinatadək isə "Təmiz Şəhər" ASC-də İdarə Heyəti sədrinin müavini olaraq çalışıb.

Etibar Abbasovun adı bundan əvvəl dövlət büdcəsindən təmizlənməsinə 2 milyon manat (həmin illərin kursu ilə təxminən 2,3 milyon dollar) vəsait ayrılmış Zığ gölü ətrafında yaşananlarla bağlı gündəmə gəlmişdi. Həmin vaxt yerli media yazırdı ki, hələ 2018-ci ilin mart ayında "Təmiz Şəhər"in rəhbəri KİV-ə neft və tullantılarla çirklənən Zığ gölünün ətrafının tamamilə abadlaşdırılacağını demiş, bu prosesin payızda bitəcəyini, daha sonra gölün suyunun təmizlənməsinə başlanılacağını söyləsə də, üstündən illər keçməsinə baxmayaraq ortada ciddi nəticə olmayıb. Belə ki, 2024-cü ildə rəsmi mətbuatın ("Xalq qəzeti") yazdığına görə, Zığ gölünün bərpası layihəsi başa çatdırılmayıb. 2023-cü ilin ortalarında isə ölkə telekanalları (konkret olaraq, "Xəzər" TV) paytaxt mərkəzinə ən yaxın göllərdən biri sayılan Zığ gölündə ekoloji vəziyyətin günü-gündən pisləşdiyinə dair həyəcan təbili çalırdılar. Bu deyilənlərdən isə Etibar müəllimin 7 il öncəki açıqlamasının quru sözdən ibarət olduğu aydınlaşmışdı.

Həmçinin ölkə mediasında adı çəkilən ASC-nin müxtəlif vaxtlarda keçirdiyi satınalma müsabiqələri ilə bağlı da ilginc məlumatlar yer alıb. Məsələn, belə müsabiqələrin birində dövlətə 15.782 manat borcu olduğu halda "Yaşıl Vadi-RMP" MMC adlı şirkətin təxminən 300 min manat dəyərindəki tenderin qalibi elan edildiyi məlum olmuşdu. Halbuki Azərbaycan Respublikasının Satınalmalar Haqqında olan Qanununa görə satınalmalarda iştirak edən şirkətlərin tender komissiyasına təqdim etdiyi mühüm sənədlərdən biri də dövlətə vergi borcunun olmaması haqqında müvafiq orqanlardan alınan arayışdır.

İndi isə Hesablama Palatasının "Təmiz Şəhər" ASC-də aşkarladığı milyonlarla manatlıq nöqsanları yenidən gündəmə gətirib. Fəaliyyətində ciddi qüsurlar ortaya çıxan ASC-nin rəhbərliyində tezliklə dəyişikliklərin baş verəcəyi, bir az da dəqiqləşdirsək, E.Abbasovun öz postu ilə vidalaşacağı istisna deyil.

***Sənan Mirzə***

11 №07 (2237) 21 fevral 2025-ci il UNİKAL

**5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətənə sevgi ailədən başlayır

## Həsən Əliyev: "Ata-babadan milli-mənəvi dəyərlərə sahib çıxan, torpağını və vətənini sevən xalq nümayəndələri kimi bu ruhun qorunması önəmlidir"



***Uşaq və gənclərin vətənpərvər ruhda, onların hələ uşaqlıqdan vətən sevgisi ilə böyüməsində ailələrin rolu böyükdür. Elə ailə kiçik dövlətdir sözü də boşuna deyilməyib. Dövlətin güclü, qüdrətli olması həm də onu sevən, göz bəbəyi kimi qoruyan gələcəyin yetişməsindən asılıdır. 44 günlük şanlı Zəfərlə başa çatan müharibə göstərdi ki, Qarabağda doğulmayan, Qarabağı görməyən gənclər onun uğrunda ölümə getməyi bacardılar. Bütün bunların kökündə isə uşaqların hələ körpəlikdən vətən sevgisi ilə böyüdülməsinin rolu danılmazdır.***

Hələ beşikdə bizə laylay çalarkən vətəni ana qədər sevməyi öyrədən analarımızın bir əsas amalı da vətənpərvər ruhda övlad böyütmək, cəmiyyətə, vətənə layiqli vətəndaş yetişdirmək olub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin əməkdaşı Həsən Əliyevlə söhbətimiz də ailələrdə vətənpərvərliyin aşılanması, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsi ilə bağlı oldu.

H. Əliyev "Unikal" qəzetinə müsahibəsində bildirdi ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi gənclərin vətənpərvər ruhda yetişməsi üçün səlahiyyətləri daxilində bütün addımları atır. Onun sözlərinə görə, qəbul olunan Dövlət proqramları, Milli fəaliyyət planı, habelə tədbirlər planında bütün bunlar öz əksini tapıb.

"Təbii ki, bura il ərzində keçirilən onlarla layihələr, tədbir və təlimlər də daxildir. Ailələr və uşaqlarla keçirilən tədbirlərdə milli dəyərlərin aşılanması və qorunub saxlanması istiqamətində Dövlət Komitəsinin mütəxəssisləri tərəfindən zəruri məlumatlar verilir. Digər mövzular üzrə həyata keçirdiyimiz bir sıra tədbirlərimizə ayrılan zamanın 5-10%-i vətənpərvərlik hisslərinin aşılanması üçün hesablanır. Bununla yanaşı Dövlət Komitəsi məhz bu mövzuda bir sıra layihələr hazırlamış, tədbir və təlimlər keçmişdir. Buna misal olaraq, "Vətəni sevək, ona layiq olaq" mövzusunda keçirilən silsilə tədbirini göstərmək olar. Komitənin nəzdində fəaliyyət göstərən 18 yaşadək seçilmiş Uşaq Səfirlər Məclisinin üzvləri, məktəblərdə yaradılmış məclisin nümayəndəlikləri, habelə, regionlarda yerləşən səfir nümayəndələr öz ərazilərində, məktəblərində onlar üçün qəbul edilmiş tədbirlər planına əsasən müvafiq mövzuda təlimlər keçirirlər. Bundan başqa, Dövlət Komitəsi Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində təhsil ocaqlarında təlimlər keçirir, gənclərin və uşaqların sağlam, vətənpərvər ruhda yetişməsi üçün onları təlimatlandırır. Təlimlərin qısa xülasəsi Azərbaycanın bu gün dünyada söz sahibi olmasına gətirib çıxaran amillərdən, Dövlətin və ordunun möhkəmlənməsinin millət üçün önəmli olmasından, xalqın ölkə başçısının ətrafında birləşməsinin Azərbaycana gətirdiyi uğurlardan, həmçinin, ata-babadan milli-mənəvi dəyərlərə sahib çıxan, torpağını və vətənini sevən xalq nümayəndələri kimi bu ruhun qorunmasının önəmindən ibarətdir", deyə Həsən Əliyev bildirir.

Komitə səlahiyyətlisi deyir ki, keçirilən tədbirlərin nəticəsi çox böyükdür:" "Buna misal olaraq uşaqların könüllülük hərəkatına qoşulmasının önəmli dərəcədə artmasını nümunə göstərə bilərik. Çünki uşaqlar və gənclər bu ruhda böyüdükləri üçün dövlətlə həmrəy olub, onun sıralarına qoşulmağa can atırlar. Əyani misal kimi isə təlimlərimizin sonunda mütləq şəkildə bir sıra uşaqlar Komitə mütəxəssislərinə yaxınlaşaraq öz həyatlarına yeni istiqamət vermək üçün haradan başlaya biləcəklərini soruşmalarını və bizdən dəstək istəmələrini göstərmək olar. Tədbirlər zamanı 44 günlük zəfər salnaməsindən bəhs edərkən uşaqların qürurlanması, gələcəkdə hərbçi, polis kimi işləmək üçün yeni fikirlərinin formalaşmasını da misal göstərə bilərik. Mütəxəssislər uşaqlara və gənclərə vətənin, torpağın, Azərbaycanın nə demək olduğunu başa salır, bu da öz yolunda uşaqlarda vətənpərvərlik hissini ucaldır. Gənclərimizdə vətənpərvərlik hissinin yüksək mərtəbədə olmasının digər önəmli amili isə valideynlərin roludur. Dəyərlərinə sadiq olan xalqın nümayəndələri həmişə övladlarını bu ruhda tərbiyə edir, böyüdür, təhsil verir. Bu səbəbdən uşaqlar böyüklərlə birlikdə vətənini sevən, dəyərlərinə sadiq, bir yumruq kimi hər zaman birlikdə inkişaf edir".

Qeyd edək ki, Azərbaycanın gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərimizin vətənpərvərlik, azərbaycançılıq, dövlətçiliyə və milli-mənəvi dəyərlərə hörmət ruhunda formalaşmasıdır.Dövlətimiz öz müstəqilliyini yenidən bərpa etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri də uşaq və gənclərin sağlam və vətənpərvər ruhda böyüməsi, onların fiziki və mənəvi inkişafı, milli ruhda tərbiyəsi məsələsi oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində gələcəyimiz olan gənc nəslin inkişaf etməsi üçün bütün lazımi tədbirlər həyata keçirildi. Sevindirici haldır ki, əsası Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti nəticəsində həm ölkə daxilində, həm də ölkə xaricində Azərbaycanımızı layiqincə təmsil edən gənclər yetişib. Vətənpərvərlik ruhu təkcə ailədə deyil, bütün dövlət qurumlarında, özəl sektorda, o cümlədən ayrı-ayrı sahələrdə çalışan hər kəs üçün ən önəmli faktor olmalıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Qarabağımızın xilaskar oğlu

***Ümid İlqar oğlu Qasımzadə İkinci Qarabağ müharibəsində Vətənin yaşaması naminə sinəsini ona sipər edəndə ömrünün 19-cu ilini yaşayırdı.***

Cəlilabad rayonu, Göytəpə şəhərində dünyaya göz açan Ümid yaşının bu az ilində yazdığı şanlı tarix ilə bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrilərək milyonların ürəyinə köçübdür. Dövlət tərəfindən də odlu-alovlu müharibədə göstərdiyi fədakarlığa, mərdliyə yüksək qiymət verilib. Ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarla təltif edilib.

Qarabağımızın xilaskar oğlu Ümid özünü dərk edəndən doğma Azərbaycana, dövlətinə və xalqına ürəkdən bağlanıb. Səmimiyyəti, yüksək əxlaqı, insanpərvərliyi onun Vətənə layiqli övlad olmasından xəbər verib. 2020-ci ildə Azərbaycanın Milli Qəhrəmanı Vüqar Mürsəlov adına Göytəpə şəhər 1saylı tam orta məktəbi bitirəndə, eləcə cəmiyyətdə yaxşı idmançı kimi də ad qoymuşdu. Belə ki, o, məktəbdə oxuduğu zaman idmanın ağır atletika növünə maraq göstərib, Cəlilabad rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən UGİM-də məşq edib. Cəlilabadlı atletin uğurlarına gəldikdə isə müxtəlif vaxtlarda Respublika və beynəlxalq səviyyəli yarışların iştirakçısı və mükafatçısı olub. Belə ki, gənclər arasında Azərbaycan çempionatında 2019 və 2020-ci illərdə gümüş medallarla pərəstişkarlarını sevindirib.

Bir qayda olaraq haqsızlığa, ədalətsizliyə qarşı olan Ümid erməni dığaların Qarabağımızın işğalına heç cür döz bilməyib. Elə ordu sıralarına da düşməndən qisas almaq məqsədilə gedib. Xidmət zamanı fəallığı, nizam-intizam ilə seçilib. Təmiz ürəkli, vicdanlı, qeyrətli gənc komandirlərin verdiyi tapşırıqları vaxtında, dəqiq yerinə yetirib, Vətənini göz-bəbəyi kimi qorumaqla uğrunda canını, qanını belə fəda etməyə hər an hazır olub.

Ümid Qasımzadə həqiqi hərbi xidmətdə olanda Vətən müharibəsi başlanıb. İgid əsgər ilk gündən ölüm-dirim savaşına qatılıb. Vətən, torpaq sevgisindən güc alan Ümid döyüşdən -döyüşə dığalara ciddi itkilər verib. Həm də mərdliyi, qəhrəmanlığı onunla çiyin-çiyinə döyüşən əsgərlərdə qələbəyə inam yaradıb. Oktyabrın 13-də Füzulinin azadlığı uğrunda tarix yazan Ümid özü də qəfil atılan yağı gülləsinə tuş gəlib. Son nəfəsdə də "Vətən" deyib şəhadətə qovuşub.

Bəli, Azərbaycan və dünya hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda Ümid kimi igidlərin qanı bahasına Qarabağımız 30 ildən sonra azad olundu, mənliyimiz və kimliyimiz bütün millətlərə bilindi...

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:15 AM Page 13



# Ucqar ərazilərdə işləyən müəllimlərə verilən imtiyazlar



***Ucqar ərazilərdə çalışan müəllimlərə qanunla nəzərdə tutulmuş bəzi imtiyazlar verilir.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən "Azərbaycan müəllimi"ə bildirilib ki, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş, yaşı 35-dək olan gənc mütəxəssislərin kənd rayonlarında yerləşən ümumi təhsil müəssisələrinə işə cəlb olunmasının stimullaşdırılması və həmin müəssisələrdə pedaqoji kadr tələbatının ödənilməsi məqsədilə dövlət sifarişinə əsasən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan və 3 (üç) il müddətində həmin və ya digər kənd rayonlarının təhsil müəssisəsində fəaliyyətini davam etdirən gənc mütəxəssislərə kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqını ödəmək üçün 90 manat məbləğində kompensasiya verilir.

Bundan əlavə, rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan və yaşı 35-dək olan gənc mütəxəssislərə 3 il müddətində aylıq əməkhaqqına ayda 100 manat məbləğində əlavə ödənilir.

# Vergi ödəyicilərinin sayı açıqlandı

***Bu ilin fevral ayının 1-nə respublika üzrə uçotda olan 1.604.938 vergi ödəyicisinin 87 faizi fiziki şəxslər, 13 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.***

"Unikal" xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb.

Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 5,4 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,1 faiz, hüquqi şəxslərin sayı isə 7,6 faiz artıb. Fevral ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artaraq 191.643 vahid təşkil edib.

2025-ci ilin yanvar ayı ərzində 1.307 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 90,1 faizi yerli investisiyalı, 9,9 faizi xarici investisiyalı qurumlardır. Kommersiya qurumlarının 87,5 faizi elektron qaydada qeydiyyata alınıb. Yanvar ayında qeydiyyatdan keçmiş yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97,5 faiz təşkil edib.

Dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 40.901 vahid təşkil edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,3 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 32,2 faiz təşkil edib.

Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,5 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və s. formalarda yaradılıb.

# Tanınmış aparıcıya yeni vəzifə verildi

***Tanınmış teleaparıcıya yeni vəzifə verilib.***

"Unikal" xəbər verir ki, Vüsalə Səid "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio verilişləri" QSC-nin Xəbərlər departamentinin rəhbəri təyin edilib.

Qeyd edək ki, V.Səid bir müddət əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində ictimaiyyətlə əlaqələr üzrə menecer vəzifəsindən ayrılıb. O, uzun müddət AzTV və İTV-də çalışıb.

# Siyəzəndə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı artıb

***2025-ci il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, Siyəzən rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,2 faiz artaraq 743,6 manat təşkil edib. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı dövlət sektorunda 864,5 manat, qeyri-dövlət sektorunda 600,6 manat olub.***

Maliyyə və sığorta fəaliyyəti, nəqliyyat və anbar təsərrüfatı, mədənçıxarma sənayesində, dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində, emal sənayesində orta aylıq nominal əməkhaqqı rayon üzrə orta göstəricidən yüksək olub.

*Kamil Xəlilov,*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

# Buraxılış imtahanında iştirak edəcək şagirdlərin nəzərinə!

***Məlum olduğu kimi, 2025-ci il martın 2-də Bakı şəhərinin Nərimanov, Sabunçu, Xəzər, Səbail, Nəsimi, Nizami, Abşeron (I hissə), Sumqayıt (I hissə), Gəncə (I hissə), Goranboy, Yevlax, Naftalan, Şəmkir, Gədəbəy, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Göyçay, Ağdaş, Şamaxı, Qobustan, Kürdəmir, Lənkəran, Cəlilabad, Yardımlı, Bərdə, Tərtər, Ağdam, Şəki, Oğuz, Qəbələ, Xaçmaz, Siyəzən, Şabran, Ağdərə (Talış kənd tam orta məktəbi), Xocalı, Xankəndi, Şuşa və Laçında (Şəhər 2 №-li tam orta məktəb, Zabux və Sus kənd tam orta məktəbləri) Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Martın 2-də tədrisi ingilis və fransız dilində olan məktəblərin şagirdləri də imtahan verirlər.***



Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilir ki, buraxılış imtahanında iştirak edəcək şagirdlər https://eservices.dim.gov.az/sagirdbv/linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər. Şagirdlər iş nömrəsini buradan öyrənə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

**Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

-İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

**Qeydlər:**

- Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər.

- Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər.

- Peşə liseylərinin məzunları liseyin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər (Sumqayıt və Abşeronda yerləşən peşə liseylərinin məzunları martın 2-də imtahan verəcəklər).

**DİM-in mətbuat xidməti**
**Tel: (+99 412) 310-53-16 (dax. - 1117)**
**E-mail: press@dim.gov.az;**
**http://dim.gov.az**

# Sumqayıt üzrə 2024-cü ildə İstehlak və əmtəə bazarının vəziyyəti haqqında statistika

***Sumqayıt şəhəri üzrə 2024-cü ildə istehlakçıların tələbatının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 2355619,2 min manat olmaqla 2023-cü ilə nisbətən müqayisəli qiymətlərə 2,7 faiz artıb.***



Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü illə müqayisədə 3,9 faiz artaraq 2216793,5 min manata bərabər olmuş, onun 66,2 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

2024-cü il ərzində pərakəndə ticarət şəbəkələrində istehlakçılara 1885817,2 min manatlıq məhsul satılmış və onun 467608,7 min manatını (24,8 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 1418208,5 min manatını (75,2 faiz) qeyri-ərzaq malları təşkil etmişdir.

2023-cü ilə nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 2,2 faiz artmış, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 15,4 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 9,6 faiz artmışdır.

2024-cü il ərzində əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 367,5 manat və ya 2023-cü ilə nisbətən nominal ifadədə 12,6 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir şəhər sakini orta hesabla ayda 91,1 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 276,4 manatlıq qeyri-ərzaq malları almışdır.

Pərakəndə ticarət dövriyyəsinin 27,1 faizi hüquqi şəxslər (ondan 0,4 faizi dövlət ticarət müəssisələri, 99,6 faizi qeyri-dövlət ticarət müəssisələri), 36,0 faizi fərdi sahibkarlar tərəfindən, 36,9 faizi isə bazar və yarmarkalarda satılmış məhsulların həcmi təşkil etmişdir.

2024-cü il ərzində pərakəndə ticarət şəbəkələrində əmtəə qalığının həcmi 135984,4 min manat təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin həcmində dövlət sektoru 0,1 faiz, qeyri-dövlət sektoru 99,9 faiz təşkil etmişdir.

2024-cü il ərzində ictimai iaşə dövriyyəsi 2023-cü illə müqayisədə 13,2 faiz artaraq 53074,0 min manat olmuşdur.

*Sumqayıt şəhər*
*Statistika İdarəsi*

07_27 IYUI-QARA.qxd 2/21/2025 12:15 AM Page 14



# 2024-cü ildə Masallı rayonunun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri artıb

***Masallı Rayon Statistika İdarəsindən verilən məlumatda bildirilir ki, 2024-cü ildə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 580709,0 min manat təşkil etmiş və əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 5,5 faiz artmışdır. Məhsul buraxılışının həcmi 2023-cü illə müqayisədə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,3 faiz, sənaye sahəsində 15,1 faiz, tikinti sahəsində 14,0 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 37,8 faiz, informasiya və rabitə sahəsində 22,8 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində isə 0,5 faiz artmışdır.***

**Sənaye.** Rayonun sənayesi mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı; tullantıların təmizlənməsi və emalı sahələrindən ibarətdir. 2024-cü ildə 28 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. 2024-cü ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi müqayisəli qiymətlərlə 15,1 faiz artaraq 138832,9 min manat təşkil etmişdir.

2024-cü ildə istehsal edilmiş və göstərilmiş xidmətlərin 86,5 faizi emal sənayesində, 11,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 1,5 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda, 0,2 faizi isə mədənçıxarma sənayesində olmuşdur.

Mədənçıxarma sənayesi müəssisələri tərəfindən 2024-cü ildə istehsal edilmiş və göstərilmiş xidmətlərin həcmi 245,7 min manat olmuşdur.

Emal sənayesi müəssisələri tərəfindən 2024-cü ildə istehsal edilmiş və göstərilmiş xidmətlərin həcmi müqayisəli qiymətlərlə 16,8 faiz artaraq 120140,8 min manat təşkil etmişdir. Sahə üzrə məhsul istehsalının əsasını mebellərin istehsalı (86,2 faiz), qida məhsullarının istehsalı (7,3 faiz), tikinti materiallarının istehsalı (1,7 faiz), kimya sənayesi (1,6 faiz), rezin və plastik kütlə məmulatlarının istehsalı (2,0 faiz) və digər məhsulların istehsalı (1,2 faiz) təşkil etmişdir.

Elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 2024-cü ildə malların və göstərilmiş xidmətlərin həcmi müqayisəli qiymətlərlə 7,2 faiz artaraq 16315,8 min manat təşkil etmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsalın real həcmi müqayisəli qiymətlərlə 16,4 faiz artaraq 2130,6 min manat təşkil etmişdir.

Tikinti. 2024-cü ildə rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 23183,3 min manat və ya 2023-cü illə müqayisədə 69,5 faiz az vəsait yönəldilmişdir.

İstifadə olunmuş vəsaitlərin 5090,0 min manatı və ya 22,0 faizi yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 22752,2 min manatı və ya 98,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş və 2023-cü illə müqayisədə 68,6 faiz az olmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin 7,3 faizini dövlət sektoru, 92,7 faizini isə qeyri-dövlət sektoru təşkil etmişdir.

2024-cü ildə fəaliyyət göstərən tikinti müəssisələri və fərdi sahibkarlar tərəfindən yerinə yetirilmiş işlərin həcmi 28605,9 min manat təşkil etmiş və 2023-cü illə müqayisədə 14,0 faiz çox olmuşdur. Ümumi tikinti işlərinin 215,6 min manatını və ya 0,8 faizini tikinti yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilmə işləri, 3784,5 min manatını və ya 13,2 faizini əsaslı təmir, 22865,4 min manatını və ya 79,9 faizini cari təmir, 1740,4 min manatını və ya 6,1 faizini isə sair işlər təşkil etmişdir.

Kənd təsərrüfatı. 2024-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə məhsul buraxılışının ümumi dəyəri 2023-cü ilə nisbətən 0,3 faiz artaraq 201522,7 min manat olmuş, o cümlədən onun 93822,2 min manatı və ya 46,6 faizi bitkiçilik məhsullarının, 107700,5 min manatı və ya 53,4 faizi isə heyvandarlıq məhsullarının payına düşür.

Nəqliyyat. 2024-cü ildə avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 14240,0 min nəfər sərnişin daşınmış və 2023-cü illə müqayisədə 9,0 faiz artmışdır. 2024-cü ildə avtomobil nəqliyyatı ilə 2475,0 min ton yük daşınmış və 2023-cü illə müqayisədə 6,1 faiz artmışdır.

2024-cü ildə nəqliyyat və anbar təsərrüfatı xidmətlərindən əldə olunan gəlirin ümumi dəyəri 2023-cü illə müqayisədə 37,8 faiz artaraq 24423,4 min manat olmuşdur ki, onun da 9482,2 min manatı və ya 38,8 faizi hüquqi şəxslərin, 14941,2 min manatı və ya 61,2 faizi isə fiziki şəxslərin payına düşür.

İnformasiya və rabitə. 2024-cü ildə informasiya və rabitə sahəsində göstərilmiş xidmətlərin dəyəri real ifadədə 2023-cü illə müqayisədə 875,7 min manat və ya 22,8 faiz artaraq 4661,5 min manat təşkil etmişdir. Göstərilmiş xidmətlərin 3731,1 min manatı və ya 80,0 faizi dövlət sektoru, 930,4 min manatı və ya 20,0 faizi isə qeyri-dövlət sektoru tərəfindən həyata keçirilmişdir.




| | 2024-cü il faktiki qiymətlərlə, min manat | 2024-cü il 2023-cü ilə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|
| Sənaye | 138832,9 | 115,1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 201522,7 | 100,3 |
| Tikinti | 28605,9 | 114,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 24423,4 | 137,8 |
| İnformasiya və rabitə | 4661,5 | 122,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 182662,6 | 100,5 |
| Yekun: | 580709,0 | 105,5 |

Əmtəə bazarı. 2024-cü ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 570820,6 min manatlıq məhsul satılmış, onun 184800,7 min manatını və ya 32,4 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 386019,9 min manatını və ya 67,6 faizini isə qeyri-ərzaq malları təşkil etmişdir.

2023-cü ilə nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 0,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,4 faiz artmış, qeyri-ərzaq malları üzrə isə 0,5 faiz azalmışdır.

İctimai iaşə xidmətləri. 2024-cü ildə ictimai iaşə dövriyyəsi 2023-cü illə müqayisədə 12,8 faiz artaraq 17000,0 min manat olmuşdur. İctimai iaşə dövriyyəsinin 1,8 faizi və ya 312,1 min manatı hüquqi şəxslərin, 98,2 faizi və ya 16687,9 min manatı isə fiziki şəxslərin payına düşür.

Əhaliyə göstərilən ödənişli xidmətlər. 2024-cü ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü illə müqayisədə 8,5 faiz artaraq 121786,5 min manat təşkil etmişdir. Əhaliyə göstərilən ödənişli xidmətlərin 11500,0 min manatını və ya 9,4 faizini məişət xidmətləri təşkil etmişdir.

Mehmanxana (hotel) və mehmanxana tipli obyektlər. 2024-cü ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri əvvəlki illə müqayisədə 59,4 faiz artaraq 3823,8 min manat olmuş, o cümlədən 66,4 faizi nömrələrin satışından, 32,4 faizi iaşə xidmətlərindən, 1,2 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilmişdir.

2024-cü ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin xərcləri əvvəlki illə müqayisədə 57,3 faiz artaraq 1991,3 min manat, o cümlədən 27,3 faizi əməkhaqqı xərcləri, 32,4 faizi içkilərin və yeməklərin hazırlanması üçün alınan mallara çəkilən xərclər, 7,2 faizi bütün növ yanacaq və enerji xərcləri, 4,3 faizi büdcəyə ödənilən vergilər, 1,7 faizi əsas vəsaitlərin cari təmirinə sərf olunan xərclər, 0,7 faizi suyun alınmasına çəkilən xərclər, 0,9 faizi reklam xərcləri, 0,1 faizi icarə ödəmələri, 25,4 faizi isə digər xərclər olmuşdur.

Qiymət indeksləri. Rayon üzrə 2024-cü ilin dekabr ayında istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,6 faiz, 2024-cü ildə əvvəlki illə müqayisədə isə 101,6 faiz təşkil etmişdir.

2024-cü ilin dekabr ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,8 faiz, 2024-cü ildə əvvəlki illə müqayisədə isə 101,8 faiz təşkil etmişdir.

2024-cü ilin dekabr ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,7 faiz, 2024-cü ildə əvvəlki illə müqayisədə isə 98,8 faiz təşkil etmişdir.

2024-cü ilin dekabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi noyabr ayı ilə müqayisədə 100,1 faiz, 2024-cü ildə əvvəlki illə müqayisədə isə 104,0 faiz təşkil etmişdir.

Bələdiyyə. Fəaliyyət göstərən bələdiyyələrin 2024-cü ildə büdcə gəlirləri 1088,0 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 62,7 faiz çox olmuşdur. Bələdiyyələrin 2024-cü ildə büdcə xərcləri 1064,3 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 70,6 faiz çox olmuşdur.

Yeni açılmış iş yerləri. 2024-cü ildə hüquqi şəxslər üzrə 414 yeni iş yeri açılmışdır. İş yerlərindən 24,9 faizi mövcud, 75,1 faizi isə yeni yaradılmış müəssisə və təşkilatlarda yaradılmışdır.

Muzdla işləyənlərin sayı. Məşğul əhalinin tərkib hissəsi olan muzdla çalışan işçilərin sayı 2024-cü ilin yanvar-noyabr aylarında 15505 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 7649 nəfər (49,3 faiz), qeyri-dövlət sektorunda isə 7856 nəfər (50,7 faiz) təşkil etmişdir.

Muzdlu işçilərin 24,7 faizi məhsul istehsalı sahələrində, 75,3 faizi isə xidmət sahələrində çalışanlar təşkil etmişdir.

Əməkhaqqı. 2024-cü ilin yanvar-noyabr aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 5,2 faiz artaraq 598,3 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 734,1 manat (əvvəlki ilin müvafiq dövründən 6,1 faiz çox), özəl müəssisələrdə isə 461,5 manat (əvvəlki ilin müvafiq dövründən 5,8 faiz çox) olmuşdur.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, maliyyə və sığorta, dövlət idarəetməsi və müdafiə; sosial təminat, təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, həmçinin informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı digər sahələrdən daha yüksək olmuşdur.

Təhsil. İlkin məlumatlara əsasən, 2025-ci ilin əvvəlinə rayonda fəaliyyət göstərən 17 dövlət və 2 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 979 nəfər uşaq tərbiyə alır.

2024/2025-ci tədris ilinin əvvəlinə rayonda 95 dövlət ümumi təhsil müəssisələrində 28643 nəfər təhsil almışdır.

2024-cü ildə ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsini 1736 nəfər bitirmişdir ki, bu da əvvəlki illə müqayisədə 0,3 faiz çox olmuşdur.

2024/2025-ci tədris ilinin əvvəlinə rayonda fəaliyyət göstərən 1 orta ixtisas təhsili müəssisəsində 828 tələbə təhsil almış, onların 56,8 faizini qadınlar təşkil etmişdir. Əvvəlki illə müqayisədə tələbələrin sayı 10 nəfər və ya 1,2 faiz az olmuşdur.

07_27 IYUl-QARA.qxd 2/21/2025 12:15 AM Page 15





# "Ukraynada müharibə dövrü başa çatıb" - ABŞ

***Ukraynada müharibə dövrü başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ-nin milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals açıqlayıb.

"Hər iki tərəfdən ölüm və dağıntıların yaşandığı, yüz milyardlarla dollara və yüz minlərlə, hətta milyonlarla insanın həyatına səbəb olan sonsuz, amansız müharibə dövrünün başa çatdığını hamı başa düşmədi. Prezident Tramp açıq şəkildə bildirdi ki, bu müharibəni bitirmək niyyətindədir və bütün tərəflər bunu dəstəkləməlidir", - o, Fox News telekanalında deyib.

***Ağarza Elçinoğlu***

# "Zelenski amerikalı jurnalisti öldürüb" - İlon Mask



***Amerikalı sahibkar İlon Mask Ukrayna həbsxanasında ölən amerikalı jurnalist-blogger Qonzalo Liranın ölümündə Ukrayna prezidenti Volodimir Zelenski günahlandırıb.***

"Unikal" xəbər verir ki, Mask bu barədə "X" sosial şəbəkəsində yazıb. "Zelenski amerikalı jurnalisti öldürdü!",- deyə sahibkar Liranın ölümünü şərh edib.

Qeyd edək ki, Qonzalo Lira 1968-ci ildə Kaliforniyanın Burbank şəhərində anadan olub. O, Xarkovda yaşayırdı. Jurnalist Rusiyanın Ukraynadakı hərbi əməliyyatını işıqlandırıb və prezident Volodimir Zelenskini tənqid edib. 2023-cü ilin mayında o, Ukrayna Təhlükəsizlik Xidməti tərəfindən "Rusiyanın hücumuna haqq qazandırmaq" ittihamı ilə həbs edilib.

Amerikalı jurnalist 2024-cü il yanvarın 12-də həbsdə olarkən pnevmoniyadan vəfat edib.

***Gülayə Mecid***

# ABŞ-da iki təyyarə toqquşdu - Ölənlər var

***Arizona ştatının Marana hava limanında iki kiçik təyyarə toqquşub.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ mətbuatı məlumat dərc edib. Bildirilir ki, hadisə nəticəsində iki nəfər ölüb, hər iki təyyarəyə ciddi ziyan dəyib. Qəzanın baş vermə səbəbləri araşdırılır.

# Pentaqon Avropadakı qoşunların sayını azaltmağı düşünür

***"Vaşinqton qoşunlarının əksəriyyətini Avropadan çıxarmağı düşünür".***

"Unikal" ABC telekanalına istinadən xəbər verir ki, bunu Pentaqonun rəhbəri Pit Heqset deyib.

Qeyd olunur ki, Heqset Pentaqonun planlarını Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşündə açıqlayıb.

"Heqset Zelenski ilə görüş zamanı ukraynalılara Tramp administrasiyasının Amerika qüvvələrinin böyük bir hissəsini Avropadan çıxarmağı düşündüyünü söylədikdə, onları heyrətə gətirdi", - nəşr yazır.

***Gülayə Mecid***

# Qriqoryan demarkasiya və Konstitusiya dəyişikliklərindən danışdı

***"2020-ci ildən başlayaraq Konstitusiya dəyişiklikləri müzakirə olunub".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan açıqlayıb.



Onun sözlərinə görə, Ermənistanda konstitusiya dəyişiklikləri həmişə daxili proses olub: "Bu, heç bir xarici proseslərlə bağlı ola bilməz, daxili proses olub və bundan sonra da daxili proses olacaq".

Qriqoryan razılıq əldə edilmiş demarkasiya prosesinin nə vaxt başlayacağı ilə bağlı suala belə cavab verib: "Hər hansı bir hadisə baş verərsə, ictimaiyyətə açıqlanır. Proses olarsa, müvafiq idarə bu barədə ictimaiyyətə danışacaq. Baş nazirin müavini Mher Qriqoryanın rəhbərlik etdiyi işçi qrupu var, hər hansı hadisə baş verərsə, bu, hamıya məlum olur".

***Ağarza Elçinoğlu***

# "Bu, Rusiya üçün qəbuledilməzdir" - Peskov

***Xarici qoşunların Ukrayna ərazisinə yerləşdirilməsi Rusiya üçün qəbuledilməzdir.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərlə keçirdiyi brifinqdə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"NATO- ya üzv ölkələrin hərbi kontingentinin Ukrayna ərazisində yerləşdirilməsi bizim üçün məqbul sayıla bilməz", - Kreml nümayəndəsi vurğulayıb.

Xatırladaq ki, "Daily Telegraph" qəzeti mənbələrə istinadən yazıb ki, Britaniyanın baş naziri Keir Starmer gələn həftə Vaşinqtonda ABŞ prezidenti Donald Trampla görüşməyi və ona Ukraynada 30 min avropalı hərbçi yerləşdirmək planını təqdim etməyi planlaşdırır. Müvafiq plan Böyük Britaniya və Fransa tərəfindən hazırlanıb.

***Gülayə Mecid***



# İtaliya Senatı Bakı-İrəvan sülh prosesi ilə bağlı qətnamə qəbul etdi

***İtaliya Senatı "Ermənistan və Azərbaycan arasında sülh prosesinin dəstəklənməsinə yönəlmiş təşəbbüslər haqqında" qətnaməni qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliyada işgüzar səfərdə olan Ermənistan parlamentinin spikeri Alen Simonyan açıqlayıb.



"Mən bugünkü müzakirələrə, görüşlərə və Cənubi Qafqazda davamlı sülhün bərqərar olması istiqamətində atılan addımlara görə italiyalı tərəfdaşlarımıza təşəkkür edirəm", - Simonyan sosial şəbəkə hesabında yazıb.

Qətnamə 112 lehinə səslə yekdilliklə qəbul olunub.

***Ağarza Elçinoğlu***

# HƏMAS 2 ildən sonra ölü girovların cəsədlərini İsrailə təhvil verib

***Fələstinin radikal HƏMAS və İslami Cihad hərəkatları 2023-cü ilin oktyabrında HƏMAS-ın İsrail yaşayış məntəqələrinə hücumundan sonra ölən dörd İsrail vətəndaşının cəsədlərini Qırmızı Xaç Cəmiyyətinə təhvil verib.***

"Unikal" xəbər verir ki, bu barədə "Əl-Cəzirə" telekanalı məlumat yayıb.

Transferin Qəzza zolağının cənubundakı Xan Yunisdə baş tutduğu qeyd edilir. İsrail tərəfi Bibas ailəsinin (ana və iki kiçik uşaq) və Oded Lifşitzin qalıqlarını qəbul edib.

HƏMAS bildirir ki, girovlar İsrailin Fələstin anklavına endirdiyi aviazərbələr nəticəsində öldürülüb.

***Gülayə Mecid***



# "Üçüncü Dünya Müharibəsi heç kimin marağında deyil" - Tramp

***"Üçüncü Dünya Müharibəsi heç kimin marağında deyil, amma ABŞ-nin keçmiş lideri Co Bayden dünyanı buna hazırlayırdı".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu ABŞ lideri Donald Tramp deyib. "Üçüncü dünya müharibəsinin heç kimə faydası yoxdur. Əgər ABŞ-də Bayden administrasiyası daha bir il hakimiyyətdə qalsaydı, o zaman siz III Dünya Müharibəsində olacaqdınız. Amma bu, indi baş verməyəcək", - Tramp əminliklə qeyd edib. Onun sözlərinə görə, əsas vəzifəsi müharibələri bitirmək, münaqişələri həll etmək və dünyada sülhü bərpa etmək üçün çox sürətlə hərəkət etməkdir:

"Mən sülh istəyirəm. Yaxın Şərqdəki ölümlərə, Rusiya ilə Ukrayna arasında münaqişədə ölümlərə bir baxın. Bütün bunlar davam edir və biz buna son qoyacağıq".

***Gülayə Mecid***

07_27 IYUL-QARA.qxd 2/21/2025 12:15 AM Page 16



# Çempionlar Liqasının oyununda azarkeş baş hakimə rüşvət təklif etdi

***UEFA Çempionlar Liqasının pley-off mərhələsində Portuqaliyada "Benfika" və Fransanın "Monako" klubları arasında keçirilmiş cavab oyununda maraqlı hadisə baş verib.***



"Unikal" xəbər verir ki, matçın gedişində hesab 3:3 olarkən baş hakim Qlenn Nyuberq mübahisəli epizoda baxmaq üçün VAR monitoruna yaxınlaşıb. Bu zaman yerli komandanın azarkeşlərindən biri qonaqların lehinə penalti təyin olunmasının qarşısını almaq üçün əlində tutduğu pulu referinin gözləri qarşısında yelləməyə başlayıb. İsveçli hakim buna əhəmiyyət verməsə də, sonra 11 metrlik cərimə zərbəsi təyin etməyib.

Qeyd edək ki, iki görüşün nəticəsinə əsasən 4:3 hesablı qələbə qazanan "Benfika" 1/8 final mərhələsinə vəsiqə qazanıb. Lissabon təmsilçisi bu raundda İspaniyanın "Barselona" və ya İngiltərənin "Liverpul" klubu ilə qarşılaşacaq.

# Şəhidlərin xatirəsinə həsr olunmuş voleybol idmanı üzrə yarış keçirilib

***Masallı Rayon İcra Hakimiyyəti və Elşad Ağayev adına Hişkədərə kənd tam orta məktəbin birgə təşkilatçılığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinə həsr olunmuş voleybol idman növü üzrə yarışın açılış mərasimi oldu.***

Məktəbdə baş tutan Masallı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Abbas Abbaszadənin, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyevin, Ərazi İdarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin böyük məsləhətçisi Sənan Sadıqovun, Masalı Uşaq Gənclər Şahmat İdman Məktəbinin direktoru Əlifağa Yaqubovun, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyevanın, şəhid ailələri, ziyalılar, kənd ağsaqqallarının qatıldığı mərasim ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılmaqla başlanıldı.

Tədbiri məktəbin direktoru İlham Ağayev açdı. O, ölkəmizdə, eləcədə Masallıda şəhid adının uca tutulduğu, daim şəhid ailələrinə qayğı göstərildiyi və şəhidlərin xatirəsinə müxtəlif tədbirlərin təşkili artıq ənənə aldığını dedi.

Digər çıxışçılar - Masallı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Abbas Abbaszadə, Masallı Rayon İcra Hakimiyyəti Başçısının Hişkədərə kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Səyavuş Feyruzoğlu, şəhid valideynləri Rəbiyyə Nehmətova, Səkinə Ağayeva və Həzrətqulu Ləleyev bildirdilər ki, şəhidlərin xatirəsinə həsr edilmiş belə idman yarışlarının təşkili şagirdlər arasında vətənpərvərlik hissinin aşılanmasına, asudə vaxtın səmərəli olmasına yaxşı təsir göstərər.



Həmçinin ulu öndər və cənab Prezident İlham Əliyevin idmana göstərdiyi qayğıdan, bu sahədə qazanılan uğurlardan ətraflı danışıldı. E.Ağayev adına Hişkədərə kənd tam orta məktəbinin şagirdlərinin ifasında "Xudayar təsnifi" və şəhidlərə aid şeirləri ilə davam edən tədbirdə sonra yarışa start verildi.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# "Real Madrid" "Siti"ni məğlub etdi

***UEFA Çempionlar Liqasında pley-off mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, son oyun günündə keçirilən 4 matçla 1/8 finalın bütün iştirakçıları bəlli olub.

Günün ilk görüşü Almaniyada Dortmund "Borussiya"sı ilə Portuqaliya "Sportinq"i arasında oynanılıb. Qarşılaşma qolsuz heç-heçə ilə başa çatıb. Səfərdəki ilk matçda 3:0 hesablı qələbə qazanan "Borussiya" adını 1/8 finala yazdırıb.

Bu mərhələnin ən prinsipial oyunu İspaniyada keçirilib. "Real Madrid" İngiltərədə 3:2 hesabı ilə qalib gəldiyi "Mançester Siti"ni bu dəfə "Santyaqo Bernabeu" stadionunda qəbul edib. İkinci görüşdə də qələbə (3:1) qazanan "kral klubu" növbəti raunda yüksəlib. Meydan sahiblərinin heyətində hər üç qolu Kilian Mbappe vurub.



Fransa təmsilçilərinin dueli PSJ-nin "Brest" üzərində 7:0 hesablı darmadağını ilə yekunlaşıb. İlk matçda da rəqibini məğlub edən Paris klubu mərhələ adlayan növbəti komanda olub.

Nəhayət, gecənin sensasiyası Niderlandda qeydə alınıb. İtaliyadakı ilk oyunda PSV-ni 2:1 hesabı ilə üstələyən "Yuventus" cavab matçında gözlənilməz nəticə ilə üzləşib. Görüşün əsas vaxtı meydan sahiblərinin üstünlüyü (2:1) ilə başa çatıb. Əlavə vaxtda daha bir qol vuran Eyndhoven təmsilçisi İtaliya nəhəngini turnirdən kənarlaşdırıb.

UEFA Çempionlar Liqası
Pley-off mərhələsi, cavab oyunları

**19 fevral**

21:45. "Borussiya Dortmund" (Almaniya) - "Sportinq" (Portuqaliya) - 0:0
İlk oyun - 3:0

00:00. PSJ (Fransa) - "Brest" (Fransa) - 7:0
İlk oyun - 3:0

00:00. "Real Madrid" (İspaniya) - "Mançester Siti" (İngiltərə) - 3:1
İlk oyun - 3:2

00:00. PSV (Niderland) - "Yuventus" (İtaliya) - 3:1
İlk oyun - 1:2

Qeyd edək ki, daha əvvəl Almaniyanın "Bavariya", Portuqaliyanın "Benfika", Niderlandın "Feyenoord" və Belçikanın "Brügge" komandaları 1/8 finala vəsiqə qazanıblar. Bu raundun püşkatma mərasimi fevralın 21-də keçiriləcək.

# "Liverpul" xal itirdi

***İngiltərə Premyer Liqasında XXIX turun təxirə salınmış oyunu keçirilib.***



"Unikal" xəbər verir ki, "Liverpul" səfərdə "Aston Villa"nın qonağı olub. Görüşdə qalib müəyyənləşməyib - 2:2.

Hesabı 29-cu dəqiqədə Mersisayd təmsilçisinin hücumçusu Məhəmməd Salah açıb. 38-ci dəqiqədə Yuri Tilemans tarazlığı bərpa edib. İlk hissənin əsas vaxtına əlavə olunmuş 3-cü dəqiqədə Olli Uotkins yenidən meydan sahiblərini önə keçirib. Görüşdə son nöqtəni isə 61-ci dəqiqədə Trent Aleksander-Arnold qoyub.

Bu nəticədən sonra "Liverpul" 61 xalla turnir cədvəlinə başçılıq edir. 39 xalı olan "Aston Villa" isə 9-cudur.

# "Zirə" legioneri ilə müqaviləni uzatdı

***"Zirə" futbolçusu Stefan Aka ilə müqavilə müddətini uzadıb.***

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 34 yaşlı müdafiəçi ilə 1+1 illik yeni müqavilə bağlanılıb.

Qeyd edək ki, Fil Dişi Sahilindən olan müdafiəçi 2023-cü ildən "Zirə"nin formasını geyinir.

# İstanbul derbisinin əcnəbi hakimləri açıqlandı



***Türkiyə çempionatının 25-ci turunda keçiriləcək "Qalatasaray" - "Fənərbaxça" derbisinin hakimləri dəqiqləşib.***

QOL.az xəbər verir ki, bu barədə Türkiyə Futbol Federasiyası məlumat yayıb.

Oyunun referisi sloveniyalı Slavko Vinçiç olacaq. Ona yan xətt hakimləri qismində Tomas Klançnik və Andraz Kovaçiç köməklik göstərəcəklər. Dördüncü hakim funksiyasını isə Kadir Sağlam yerinə yetirəcək.

Qeyd edək ki, fevralın 24-də keçiriləcək "Qalatasaray" - "Fənərbaxça" matçı Bakı vaxtı ilə saat 21:00-da başlayacaq. "Qalatasaray" hazırda turnir cədvəlində 63 xalla 1-ci, "Fənərbaxça" isə 57 xalla 2-cidir.

Xatırladaq ki, bir müddətdir İstanbul derbisini yerli, yaxud əcnəbi hakimin idarə edəcəyi müzakirə olunurdu. Ötən gün Türkiyə Futbol Federasiyasının prezidenti İbrahim Hacıosmanoğlu baş hakimin adını açıqlamasa da, oyunun tanınmış bir referiyə həvalə olunacağını bildirmişdi.

# Ançelottidən yeni rekordlar

***"Real"ın baş məşqçisi Karlo Ançelotti yeni rekordlara imza atıb.***



QOL.az xəbər verir ki, onun komandası ötən gecə Çempionlar Liqasının pley-off mərhələsinin cavab oyunları çərçivəsində "Mançester Siti"yə qalib gəlib - 3:1. İlk görüşdə də rəqibini məğlub edən (3:2) Madrid təmsilçisi 1/8 finala adlayıb.

"Mançester Siti" ilə cavab matçı Ançelottinin "Real"la çıxdığı 73-cü ÇL oyunu olub. Bu isə "kral klubu"nun tarixinin rekordudur.

Həmçinin sözügedən cavab oyunu Ançelottinin baş məşqçi kimi ÇL-də ümumilikdə 214-cü matçıdır. Mütəxəssis bu oyunlardan 123-də qalib gəlib, 47 dəfə heç-heçə edib və 44 dəfə uduzub.

65 yaşlı çalışdırıcı Avropanın əsas klub turnirində "Real"dan başqa, "Napoli", "Bavariya", PSJ, "Çelsi", "Milan", "Parma" və "Yuventus"la da qələbələr qazanıb.

214 oyunda 123 qələbə nəticəsi ÇL tarixinin ən yaxşı göstəricisidir.